www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17-19 iyun 2023-cü il Şənbə № 105 (8241) Qiymәti 60 qәpik

**Xəbər**

## Azərbaycanda müdhiş mənzil cinayətləri - yeni Hacı Məmmədov kimdir?

yazısı səh.14-də

**Gündəm**

### Laçın postuna xain hücumun ilginc pərdəarxası - bədəli ağır olacaq, həbslər də uzaqda deyil!



Ekspertlər Bakının yeni "təhlükəsizlik xəritəsi"ndən danışdılar

yazısı səh.5-də

### Ərdoğanın ardınca Pakistanın baş naziri Bakıda: qardaşlığın təntənəsi, düşmənə gözdağı

yazısı səh.4-də

### İlham Əliyevin BMT ilə bağlı təklifi masada

yazısı səh.12-də

### Parlament büdcəyə dəyişiklikləri təsdiqlədi

yazısı səh.7-də

### İcra başçılarının səlahiyyətləri artırıldı - iş keyfiyyəti də artacaqmı?

yazısı səh.10-da

### ŞOK!: Vardanyan Paşinyana qarşı "kamikadze" dəstələri yaradır

yazısı səh.12-də

### Din xadimlərimizin vahid forması olsunmu? - iki rəy

yazısı səh.14-də

### Əhalinin mövqeyi bəlli oldu: "Dərslər sentyabrın 1-də başlasın..." - sorğu ciddiyə alınacaqmı?

yazısı səh.15-də

### Ayaz Mütəllibovun mətbuat katibi həbs olundu

yazısı səh.13-də

### Bu gün Həcc ziyarəti başlayır - QMİ rəsmisi qiymətlərdəki artımın səbəbini açıqladı

yazısı səh.13-də

# RUSİYANIN QARABAĞDA BAKIYA QARŞI SON OYUNU - ABŞ-DAN ŞOK XƏBƏRDARLIQ

Laçın postuna atılan güllələr: Moskva separatçılara görə niyə əl-ayağa düşüb? Amerika səfirliyindən İrəvanı və "şeytan yuvası"nı məyus edən mövqe...



yazısı səh.8-də

## Ermənistanın Kərki hiyləsi, yeni zavod bəhanəmi? - təhlükəli gəlişmə

İrəvan Vaşinqtonla Bakının arasını vurmaq istəyir - hayların daha bir məkri; "Azərbaycan gecikmədən öz mövqeyini ABŞ-a çatdırmalıdır..."

yazısı səh.9-da



*Natiq Cəfərli:*

### "Zəngəzur dəhlizi məsələsi tezliklə həllini tapacaq"

yazısı səh.4-də



Co Bayden

### ABŞ-ın yeni səfiri gəlir - Bayden Azərbaycan siyasətini dəyişir?

yazısı səh.6-da



Adil Qəribov

### Nüvə alimindən SOS!: "Azərbaycan bu sahədə İran və Ermənistan qarşısında əliboş qalıb"

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

# Tuğ kəndinin tarixi ərazisi Dövlət Qoruğu elan edilib - sərəncam



**"Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu yaradılır. Musavat.com xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Azərbaycan xalqının böyük keçmişini özündə təcəssüm etdirən tarixi yaşayış məntəqələrindən biri Qafqaz Albaniyasının qədim irsinə aid mədəniyyət abidələrinin mövcud olduğu Tuğ kəndidir. Burada Qarabağ bölgəsinin ənənəvi memarlıq üslubuna xas dekorativ elementlərlə işlənmiş yaşayış evləri, bulaqüstü tikililər, sənduqə tipli qəbirlər və məbədlər vardır. Tuğ kəndi eyni zamanda zəngin təbii potensiala və ekoloji resurslara malikdir. Şuşa şəhərinə aparan Zəfər yolu üzərində yerləşməsi kəndin turizm baxımından inkişaf perspektivini də artırır.

Qoruğun yaradılması Xocavənd rayonu Tuğ kəndinin tarixi əhəmiyyəti nəzərə alınaraq, ətraf ərazilərdə mədəni və təbii irsin kompleks şəkildə qorunması, habelə burada turizmin inkişaf etdirilməsi məqsədi daşıyır.

Sənədə əsasən, Xocavənd rayonunun Tuğ kəndinin tarixi ərazisi "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu elan edilib.

Qeyd edilib ki, Nazirlər Kabineti iki ay müddətində qoruğun sərhədlərini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etməli, qoruğun ərazisinin xüsusi rejimini müəyyən edib Azərbaycan Prezidentinə məlumat verməli, eləcə də qoruğun maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görməlidir.

Dövlət Turizm Agentliyi isə qoruğun idarə olunmasını təmin etməli və bu sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

Qoruğun fəaliyyəti ilə bağlı tələb olunan zəruri xərclər Azərbaycanın dövlət büdcəsində Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçiriləcək.



## Bu şəxslər 50 manat cərimə olunacaqlar - xəbərdarlıq

**Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi piyadalara yol verməyən sürücülərə müraciət edib. Mərkəzdən Musavat.com-a daxil olan müraciətdə deyilir:**

"Qaydalara riayət edib, piyada keçidləri ilə hərəkət etmək istəyən şəxslərə bəzən sürücülər yol vermir. Paytaxt ərazisindəki müşahidə kameralarının görüntüləri bunu deməyə əsas verir. Belə ki, bəzi sürücülər daha çox Yasamal, Nəsimi, Nərimanov, Nizami, Xətai və Səbayel rayonlarının küçə və prospektlərində nizamlanmayan piyada keçidlərindən istifadə etmək istəyən piyadalara yol vermirlər.

Piyadalar bu keçidlərdə dəqiqələrlə gözləmək məcburiyyətində qalırlar və yaxud da bir sıra sürücülər müşahidə kameralarının olduğu piyada keçidlərində piyadalara yol verirlər, lakin kameraların olmadığı keçidlərdə bu qaydaya əməl etmirlər. Nizamlanmayan piyada keçidlərində piyadalara tək minik avtomobillərinin sürücüləri deyil, həmçinin bəzi moped və motosiklet sürücüləri də yol vermir.

Belə sürücülər bilərəkdən qaydalara əmək etməkdə məsuliyyətsizlik edirlər. Çünki cari ilin 5 ayı ərzində paytaxt da daxil olmaqla respublika yollarında piyadalara yol verməyən 5 minə yaxın sürücü, ötən ildə isə 10 minə yaxın sürücü barəsində cərimə tətbiq edilib. Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 330-cu maddəsinə əsasən, nizamlanmayan piyada keçidinə daxil olmuş piyadaya yol verməyən sürücülər 50 manat miqdarında cərimə edilirlər.

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi sürücülərə müraciət edərək bildirir ki, piyada keçidlərində piyadalara yol verilməsi, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması və qəzaların sayının azalmasına müsbət təsir göstərir. Bu baxımdan, hər biri sürücünü yol hərəkəti qaydalarına əməl etməyə çağırırıq".

## Quru sərhədimiz yalnız Ermənistanla açıqdır - deputat

**Bu gün bizim İran, Gürcüstan, Rusiya ilə quru sərhədlərimiz bağlı, amma Ermənistanla quru sərhədimiz açıqdır. Bu, Prezidentin böyük humanist addımıdır.**

Bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Musa Qasımlı deyib.

Deputat bildirib ki, Ermənistan bunu qiymətləndirə bilmir: "Xüsusən onun havadarları, İran bölgəni qarışdırmaq istəyir. Bu gün Azərbaycan Ermənistan vətəndaşlarının sərbəst hərəkətinə icazə verir, Ermənistan bunu anlamır. Bu gün Azərbaycan hərbçisinə, sərhədçisinə atəş açan şəxs dərhal məhv edilməlidir. Biz sərhədlərimizdən qanunsuz bir quşun belə uçmasına icazə verməməliyik. Bu gün beynəlxalq təşkilatlar "Laçın" sərhəd-buraxılış məntəqəsində baş verənlərə münasibət bildirməli, Ermənistana yerini göstərməlidir. Sərhəddə baş verənlərə görə bütün məsuliyyət Ermənistanın və onun havadarlarının üstünə düşür".



## Rəisinin həyat yoldaşı türkləri "düşmən" adlandırdı

**İran Prezidenti İbrahim Rəisinin həyat yoldaşı Cəmilə Ələmülhuda Venesuela mediasına müsahibə verib.**

Musavat.com xəbər verir ki, o, türkləri düşmən adlandırıb.

"Tarix boyu İranın çoxlu düşməni olub: monqollar, türklər, ərəblər... Amma onlar İranın dil, mədəniyyət və sivilizasiyasını dəyişə bilməyiblər" - Cəmilə Ələmülhuda deyib.



## Bu gün Bakıda 30° isti olacaq

**İyunun 17-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var.**

Bu barədə Musavat.com-a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Qeyd edilib ki, şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 17-22° isti, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 % olacaq.

## Erkən ölüm riskini azaltmağın və dərmansız yaşamağın asan yolu - cəmi 30 dəqiqə...

**Sağlam bir həyat sürmək və bədəninizi xəstəliklərdən qorumaq üçün idman vacibdir. Mütəxəssislər idmanın sağlam bədən üçün əhəmiyyətinə diqqət çəkir. Daimi fiziki fəaliyyət sağlamlığı dəstəkləyir və ürək xəstəliyi, insult, demans, depressiya, diabet və bir çox xərçəng növlərinin inkişaf riskini əhəmiyyətli dərəcədə azaldır.**

Musavat.com xəbər verir ki, Türkiyənin tanınmış həkimi Bilal Boztosun hər gün 30 dəqiqə idman etməyin hipertoniya riskini beşdə bir ölçüdə azaltdığını qeyd edib.

"Nizamlı fiziki fəaliyyətin sağlamlığa faydalarını dəstəkləyən çoxlu dəlil var və bilirik ki, ürək xəstəliyi, insult, demans, depressiya, 2-ci tip diabet və bir çox xərçəng növü inkişaf riskinizi əhəmiyyətli dərəcədə azaldır. Bundan əlavə, fiziki məşq hər hansı bir səbəbdən və yuxudan vaxtından əvvəl ölüm riskinizi azaldır. Bundan başqa, çəki nəzarəti, sümük sağlamlığı və tarazlığı qorumaq kimi bir çox faydası var".

Həkim fiziki fəaliyyətin olmamasının ürək-damar və 2-ci tip diabet kimi xəstəliklər üçün ən böyük risk faktorları arasında olduğunu və bütün ölümlərin 40 faizini təşkil etdiyini açıqlayıb.

"Hər gün 30 dəqiqə idmanla məşğul olmaq hipertoniya riskini təxminən beşdə bir ölçüdə azalda bilər, həftədə dörd saat fiziki fəaliyyət isə sağlam bir təzyiqlə ömür boyu dərman istifadə etmək məcburiyyətinin qarşısını ala bilər. Əgər kardio və ya güc məşqlərinə başlayacaqsınızsa, 5-10 dəqiqəlik isinmə hərəkətləri ilə başlayın və seansı bir az dartınmaqla bitirin. Bu, əzələ kramplarını aradan qaldırır, hərəkət diapazonunu və tarazlığı yaxşılaşdırır" - Boztosun qeyd edib.



## Bakıda dünya çempionu həbs edildi

**Kikboksinq üzrə üçqat dünya çempionu, Əməkdar idman ustası Elman Mirzəyev həbs edilib.**

Musavat.com-un "Qafqazinfo"ya istinadən məlumatına görə, dələduzluqda ittiham edilən tanınmış idmançı barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə istintaq müddəti üçün 2 ay müddətində həbs-qətimkan tədbiri seçilib.

Belə ki, 1976-cı il təvəllüdlü Elman Qurbanxan oğlu Mirzəyev barəsində Nərimanov RPİ-də Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq etmə) maddəsi ilə açılmış işin istintaqı davam etdirilir.

Bildirilir ki, məşhur idmançının cinayət işi üzrə 3 nəfər zərərçəkmiş şəxs qismində tanınıb. Belə ki, onun 2021-ci ildə paytaxt sakini A.Ağayevdən satmaq adı ilə "Land Rover" markalı avtomobili alaraq dəyərini ödəyəcəyini bildirməsi, lakin hər hansı ödəniş etməyərək 263 500 manat ziyan vurması məlum olub. Bundan başqa, E.Mirzəyevin tanışı M.Əliyevə xaricdən "Range Rover Sport" və "Bentley" markalı avtomobillər gətirəcəyini vəd edərək 289 min manat alması, lakin vədinə tam əməl etməyərək vəsaitin 127 500 manatını ələ keçirməsi müəyyən edilib.

Digər şikayətçi M.Quluzadə isə E.Mirzəyevin ona məxsus daşınmaz əmlaka çıxarış alacağına dair vəd verərək 42 min manat aldığını, lakin vədinə əməl etməyərək vəsaiti ələ keçirdiyini bildirib.

Zərərçəkmiş şəxslər geridə qalan uzun müddət ərzində Elman Mirzəyevin vəzifəli və nüfuzlu şəxslərin adlarını çəkərək onlar vasitəsilə istintaqa təsir göstərməyə cəhd edərək məsuliyyətdən yayınmaq istədiyini də iddia ediblər.

Hazırda açılmış cinayət işi üzrə araşdırmalar davam etdirilir.

**"Üç gün əvvəl, Avroparlamantdə son iki ildə 7-ci dəfə gündəliyə çıxarılan Ermənistan-Azərbaycan məsələsi avrokomissar Jozef Borrelə deputatların təzyiqindən sonra bir cümləlik anti-Azərbaycan bəyanatı ilə yekunlaşıb. Bədnam Fransua Bellami və Almaniya, Niderland, Fransa, Malta, Kiprdən olan həmkarları ölkəmiz əleyhinə birləşiblər. Sessiyada ölkəmizə sanksiyaların tətbiqi, Xankəndi ermənilərinə maliyyə və hərbi yardım, beynəlxalq təhlükəsizlik missiyasının bölgəyə göndərilməsi xüsusi vurğulanıb. Göründüyü kimi, 44 günlük müharibənin qəfil baş verməsi ilə Qərb özünü məğlub sayır, bölgədən çıxarılması ilə barışmır və hər vəchlə geri dönməyə can atır".**

# Zahid Orucdan Zəngəzurla bağlı sensasion açıqlama: "İrəvan və Bakı barış istəyirsə..."



Musavat.com xəbər verir ki, bu fikirləri parlamentin növbədənkənar sessiyası çərçivəsində iyunun 16-da keçirilən plenar iclasında İnsan hüquqları komitəsinin və Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc səsləndirib.

**Zahid Orucun çıxışının tam mətnini təqdim edirik:**

"Avroparlamentdə Laçın yolunu gündəmə çıxaranlar 10 noyabr sənədini tanımadıqları halda 6-cı bənddən-Rusiya sülhməramlılarının məntəqəni qorumadığından danışıb özlərini ifşa ediblər. Bəli, 30 il o yolu icazəsiz keçənlərin qarşısına indi sədd çəkilib. Beləliklə, Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması Qərbin planlarına zərbə vurub. Jozef Borrel 51 dövlətin 100 milyard dollardan artıq yardım etdiyi Ukraynanın anti-Rusiya koalisiyasına Azərbaycanı da qoşmaq istəyir. Plan bəllidir: Ukrayna müharibəsini Qafqazlara qədər uzadıb Rusiya ordusunu bir neçə cəbhəyə parçalamağa çalışırlar. Bir əsr əvvəl bolşevik inqilabı olmasaydı, indi Vudro Vilsonun və Almaniya-Britaniya qüvvələri bölgəmizdə hökmranlıq edirdi. Ssenari eynidir: NATO qüvvələrini Gümrüyə gətirsinlər.

Bu ilin martında Foq Rasmussenin əvvəlcə Cermuxa gəlib Azərbaycanın "hərbi hücumu"nu pisləməsi, ardınca Laçın sərhəd punktuna yaxınlaşıb görüntülər paylaşması, Qarabağda erməni əhalisinin "humanitar böhran"ını qabartması Ermənistana casus missiyasi göndərən NATO-nun, onun əsas yönləndiricisi Amerikanın birbaşa sifarişi idi. Ağdama, Ağdərəyə bir dəfə də olsun gəlməyən keçmiş baş katib indi ölkəmizə sistemli hücumlar edir və İrəvandan, o cümlədən Xankəndidən rus hərbi birləşmələrini çıxarıb Avroatlantik Alyansın qoşunlarını yerləşdirmək istəyənlərin sözünü deyir.

Göründüyü kimi, Paşinyana Brüssel və Parisdən güclü təzyiqlər var. USAİD, UNİSEF, YUNESKO və digər humanitar təşkilatlar, o cümlədən Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti agentura şəbəkəsinə çevrilib və onların Qarabağa gələn missiyası hərbi-kəşfiyyat planlarını həyata keçirirlər.

Dünən (srağagün - red.) bütün erməni informasiya kanallarında Həkəri körpüsü üzərində Azərbaycan bayrağının qaldırılması zamanı ölkəmizin qəhrəman oğulları ilə Rusiya sülhməramlılarının birgə hərəkət etməsinə qarşı genişmiqyaslı qarayaxma kampaniyası aparılırdı. 30-cu ildönümünü yaşadığımız hazırkı iyun günlərində bizi Rusiya ilə 90-cı illərdəki kimi toqquşdurmaq istəyirlər.

Əliyev-Putin-Ərdoğan arasında münasibətlər Amerika və Avropa Birliyini qəzəbləndirir. Lakin plan işləmir. Dünənki (srağagünkü - red.) Zəngilan, Laçın və digər sərhəd nöqtələrində təxribatlarla Strasburqdakı, Brüsseldəki siyasi şantaj dolu müzakirələr vahid mərkəzdən idarə olunur. Xalqımız bilir ki, Rusiya-Amerika savaşı Ermənistan-Azərbaycan arasında sülhə imkan vermir. İrəvan və Bakı barış istəyirsə, gedib müqaviləni Brüssel, Moskva və Vaşinqtonda deyil, Zəngəzurda imzalasınlar!"

❑ **Musavat.com**

---

**Məlum olduğu kimi, iyunun 20-24-də müəllimlərin növbəti sertifikatlaşdırma imtahanı keçiriləcək. İmtahan ümumilikdə 31 mərkəzdə təşkil olunacaq. Elm və Təhsil Nazirliyinin məlumatına görə, imtahan prosesində 8 min müəllim iştirak edəcək.**

# 60 yaşı tamam olan müəllimlərin sertifikatlaşdırmada iştirakı məcburidirimi?



Bəs 60 yaşı tamam olan müəllimlər sertifikatlaşdırmadan azaddırmı?

Musavat.com xəbər verir ki, **deputat Vüqar Bayramov** mövzunu bu cür şərh edib: "Son günlər iyunun 20-24-də keçiriləcək növbəti sertifikatlaşdırma imtahanında iştirakla bağlı çoxsaylı suallar ünvanlandığından qeyd etmək istəyirəm ki, 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakının könüllü olması ilə bağlı qanun layihəsi hər 3 oxunuşda Milli Məclisdə qəbul olunub. Layihə cənab Prezident tərəfindən imzalandıqdan sonra qüvvəyə minəcək. Belə ki, MM-in qəbul etdiyi yeni dəyişikliklərə əsasən, ümumtəhsil müəssisələrində 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür. Yeni dəyişikliklər dövlət başçısı tərəfindən təsdiq olunduqdan sonra əgər orta məktəbdə çalışan müəllimin yaşı 60-dan çoxdursa, o, heç bir halda məcburi sertifikatlaşdırmaya cəlb edilə bilməz. Bu halda müəllim yalnız öz istəyi ilə sertifikatlaşdırmada iştirak edə biləcək. 60 yaşı tamam olan müəllimlərin növbəti sertifikatlaşdırmada iştirakına gəldikdə, sənəd dövlət başçısı tərəfindən imzalandıqdan sonra hüquqi qüvvəyə malik olur. Onadək isə əvvəlki qaydalar qüvvədədir. Bu baxımdan, cənab Prezident tərəfindən dəyişikliklər təsdiq olunduqdan sonra 60 yaşı tamam olan müəllimlər üçün sertifikatlaşdırmada iştirak könüllü olacaq".

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**

---

# SOS!: "Bakıda insanların həyatı üçün təhlükə mənbəyi olan binalar tikilməkdədir"



**Milli Məclisin deputatı Azər Badamov cəmiyyət üçün çox aktual olan bir mövzuya toxunub. O, Musavat.com-a qeyri-qanuni tikilən və insan həyatına təhlükə olan binalardan danışıb.**

Deputatın fikirlərini təqdim edirik: "Son illər aparılan sosial-iqtisadi siyasətin uğurlu icrası sayəsində ölkəmizin tikinti sektorunda böyük canlanma baş verib. Bu, həm də yeni-müasir tələblərə cavab verən binaların ucalmasına yol açıb. Yeni tikililər yaşayış məntəqələrinə xüsusi müasirlik gətirir və vətəndaşların rahat yaşayışını təmin edir. Amma çox təəssüf ki, onların arasında qeyri-qanuni ucaldılanı, insan həyatına təhlükə mənbəyi olanı da az deyil. Bəzi tikililərin icazə və normalara uyğun olmadan, kommunikasiyaların mühafizə ərazilərində tikilməsi, o cümlədən "!Şəhərsalma və tikinti məcəlləsi"ndə tələblərin daha yumşaq qeyd olunması və tələblərin icrasına görə tətbiq olunan inzibati cəzaların yumşaq olması nəticəsində davam etməkdədir. Bu, həm tikilmiş tikililərin sənədləşdirilməsi məsələsini, həm də təhlükəsizliyə nəzarəti çətinləşdirir. Qeyd etdiyim çatışmazlıqların aradan qaldırılması üçün Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilib.

Növbəti addım olaraq, qeyri-yaşayış binalarının təhlükəsiz istismarının təmin edilməsi, tikinti sektorunun likvidliyinin artırılması, habelə sahibkarlıq subyektlərinin əmlakları üzərində mülkiyyət hüquqlarının tanınması prosesinin təşkil edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 14 iyun 2023-cü il tarixli 2181 nömrəli Fərman imzalanıb. Müvafiq fərmana görə, 2023-cü il iyunun 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla, tikinti-quraşdırma işləri başa çatmış və dayanıqlılıq və möhkəmlik baxımından müayinə nəticələri müsbət olan qeyri-yaşayış təyinatlı binaların istismarına sadələşdirilmiş qaydada icazə verilməsi nəzərdə tutulur. Bu fərmanın icrası tikilmiş qeyri-yaşayış təyinatlı 40 mindən çox binanın istismara verilməsi və mülkiyyət hüququnun tanınmasına yol açacaqdır. Qüvvədə olan qanuna görə tikinti obyektinin istismara qəbul olunması üçün tələblər daha çox genişdir. Amma bu sahədə sadələşdirmənin aparılması bu günə qədər tikilmiş, lakin istismara təhlükəsiz və torpağın sənədi olan tikililərin mülkiyyət sənədlərini verilməsinə yol açacaqdır.

Sadələşdirilmiş icazə rejimi fərmanda müəyyən edilmiş göstəricilərə cavab verən bütün qeyri-yaşayış təyinatlı tikinti obyektlərinə şamil olunur. Sadələşdirilmiş icraat prosesindən yararlanmaq üçün ən geci 2025-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə müraciət edilməlidir. Eyni zamanda səmərəliliyin və şəffaflığın artırılması məqsədilə 2024-cü ilin yanvar ayından etibarən fiziki və ya hüquqi şəxslər tikintiyə və ya istismara icazəni elektron portal üzərindən ala biləcəklər. Tikintiyə və istismara icazələrin elektron portalı üzərindən ala bilməsi bu prosesdə şəffaflığın təmin olunmasına yol açacaqdır. Həm də icazə almadan özbaşına tikintinin tikintiyə başlamasına görə inzibati cəzaların sərtləşdirilməsi və belə tikinti başa çatandan sonra kommunikasiyalara qoşulmasının qadağan olunması qeyri-yaşayış təyinatlı tikililəri tikən subyektlərini qanunun tələblərini icra etməsinə öncədən düşündürəcəkdir".

**A.Badamov bir məsələyə də aydınlıq gətirib**: "Sonda qeyd etmək istəyirəm ki, tikinti-şəhərsalma sahəsində nəzarət tədbirlərinin sərtləşdirilməsi və qeyri-yaşayış təyinatlı bəzi obyektlərin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərmanın qüvvəyə minməsi bu sahədə xaotikliyin və özbaşınalığın aradan qalxmasına xidmət edəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023



## Ərdoğandan İrana Zəngəzur iradı - Tehranın "qızıl" susqunluğu və...

### Natiq Cəfərli: "Tezliklə məsələ həllini tapacaq"

**"Zəngəzur dəhlizi məsələsində problem Ermənistandan yox, İrandan qaynaqlanır". "Yeni Müsavat" xatırladır ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərdən qayıdarkən jurnalistlərə müsahibəsində söyləyib.**

Türkiyə Prezidenti bu xüsusda habelə qeyd edib: "İki ölkə (İran və Azərbaycan - red.) əhalisinin əksəriyyəti müsəlmandır. Tehranın mövqeyi Bakını və Ankaranı məyus edir. Halbuki vəziyyət onlarda (İranda) da təəssüf yaratmalıdır".

Ərdoğanın sözlərinə görə, dəmir yolu yüklərinin daşınmasında rüsumlar çox yüksəkdir. "Ümid edirəm ki, bu problem (bir vaqona görə daşınma rüsumu) tezliklə həll olunacaq. Bölgədə kommunikasiya məsələlərinə müsbət yanaşma ilə Türkiyə-Azərbaycan-İran vahid dəmir yolu və avtomobil yolları şəbəkəsini formalaşdırmaq, hətta ola bilsin, Pekin-London marşrutunu açmaq mümkün olacaq", - deyə Türkiyə Prezidenti əlavə edib.

Açıqlamadan da göründüyü kimi, son Bakı səfəri çərçivəsində R.T.Ərdoğanın prezident Əliyevlə müzakirə etdiyi əsas mövzular sırasında Zəngəzur dəhlizi də yer alıb. Bəs dəhlizə Ermənistandan çox əngəl yaradan, ermənidən çox erməni olmaq istəyən İran elan elədiyi yalançı "qırmızı xətti"ndən hansısa mərhələdə imtina edə bilərmi? Hərçənd bu da var ki, Ermənistan rəhbərliyi vaxtaşırı Zəngəzur dəhlizinin deyil, sadəcə, kommunikasiyaların açılacağı, həm də adi yol məntiqi ilə açılacağı haqda Tehranın qulağına xoş gələn bəyanatlar verir. Hələ ki rəsmi Tehran Ərdoğanın haqlı Zəngəzur iradına reaksiya bildirməyib. Ümumiyyətlə, bildirəcəkmi? Yoxsa yenə çeynənmiş "sionizm" kartını ortaya atacaq?

Yeri gəlmişkən, iyunun 17-də Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında "Biz 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda nəzərdə tutulduğu kimi, regiondakı nəqliyyat-kommunikasiya xətlərini açmağa hazırıq" bəyanatını yenidən səsləndirib. O, tərəflərin artıq bir-birilərinin ərazi bütövlüyünü tanıdığını xatırladıb. Paşinyan bildirib ki, növbəti addım demarkasiya və delimitasiya olmalıdır.

**İran parlamentinin üzvü Ara Şaverdyan isə deyib ki, Ermənistanın Baş naziri və Azərbaycan Prezidentinin əldə etdiyi pərdəarxası razılaşmaları nəzərə alsaq, Cənubi Qafqazda sərhədlərin və xəritələrin dəyişdirilməsi ilə bağlı narahatlıqlar var. O bildirib ki, bu, 44 günlük müharibədən sonra imzalanan 10 noyabr bəyanatından "kənara çıxır". Sitat:** "İran XİN-in bu barədə diqqətli olması lazımdır. Çünki Ermənistan hakimiyyəti hər zaman Zəngəzur dəhlizinin əleyhinə olduğunu desə də, faktlar göstərir ki, biz bu dəhlizə addım-addım yaxınlaşırıq, bu da İrana ziyandır, çünki bu, Cənubi Qafqazda Tehranın mövcudluğunu məhdudlaşdırır və Cənub-Şimal dəhlizinə ziyan vurur".

**İranın erməni əsilli deputatı qeyd edib ki, Qarabağdan sonra Azərbaycan addım-addım irəliləyəcək və Zəngəzur və digər dəhlizləri ələ keçirəcək:** "Çünki onlar (azərbaycanlılar - red.) Avropa və Türkiyə ilə əlaqə qurmaq istəyirlər və bu, bizim (İranın) Avrasiyaya, Qara dənizə və Gürcüstana çıxışımızı məhdudlaşdıracaq. Bu gün Türkiyənin Naxçıvan və İran torpağı vasitəsilə Azərbaycanla əlaqələri var və sərhəd dəyişikliyinə, bölgədə baş verən digər proseslərə ehtiyac yoxdur. Təəssüf ki, Cənubi Qafqazda sionist rejim və NATO kimi üçüncü qüvvələr İranın Avrasiyaya çıxışını məhdudlaşdıran amillərdir və bu, bizə siyasi, iqtisadi və strateji baxımdan zərər vurur. Biz Avrasiya İqtisadi İttifaqının daimi üzvü olacağımıza ümid edirik".

**İqtisadçı ekspert Natiq Cəfərli** qəzetimizə söylədi ki, Ərdoğanın açıqlaması daha dərin məsələlərdən xəbər verir. Onun sözlərinə görə, İranın Zəngəzur koridorunu "qırmızı xətt" elan etməsi layihəyə qarşı çıxması deyil, yola kimin nəzarət edəcəyidir: "Bu problem İranla bağlı deyil, Ermənistanla-Rusiyanın arasında olan məsələdir. İran isə Rusiyanın yox, Ermənistanın yola nəzarət etməsini istəyir. Ona görə məsələ dərindir. Çünki İranın Ermənistana dəmir yolları var. Tehran Moskvaya açıq deyə bilmir ki, yola erməni tərəfinin kontrol etməsini arzulayır. Yeni Tehran yeganə moderator Rusiyanın olmasını istəmir. Amma son zamanlar İran-Azərbaycan münasibətlərində yumşalma var. Nəticə etibarı ilə kompromis tapılacaq. Onsuz da Azərbaycan kompromis təklif edib, yeni həm Ermənistan, həm İrandan keçən iki paralel yol olacaq. Bununla da İranın narazılığı qalmayacaq. O baxımdan, düşünürəm ki, tezliklə məsələ həllini tapacaq".

---



# Ərdoğanın ardınca Pakistanın baş naziri Bakıda: qardaşlığın təntənəsi, düşmənə gözdağı

### Murad Sadəddinov: "Artıq de-fakto Azərbaycan-Türkiyə-Pakistan üçlü ittifaqı formalaşıb..."

**Pakistan İslam Respublikasının baş naziri Şahbaz Şərifin Azərbaycana ilk rəsmi səfəri başa çatdı. Diqqəti dərhal çəkən məqam səfərin Türkiyə lideri R.T Ərdoğanın Bakıya rəsmi ziyarətindən cəmi bir gün sonraya təsadüf eləməsi oldu. Təkcə bu faktın özü Azərbaycanın düşmənlərinə özünəməxsus bir mesaj, hətta gözdağı idi.**

Yeganə müsəlman nüvə dövləti olan Pakistanın müstəqilliyimizin ilk illərindən Azərbaycanın yanında olduğu sirr deyil. Bu da məlumdur ki, erməni işğalına görə rəsmi İslamabad Ermənistanla hələ də diplomatik münasibətlər qurmayan yeganə dövlətdir. Bakıda bu məsələyə toxunan cənab Şərif bildirdi ki, "Biz Ermənistanla diplomatik əlaqələrin qurulmasına yalnız Bakı və İrəvan arasında sülh müqaviləsi imzalanandan sonra qayıda bilərik".

Yəni gerçək qardaşlıq örnəyi. 44 günlük müharibə zamanı da biz bu qardaşlığı bir daha, əyani şəkildə gördük. Xalqımız bu yaxşılığı heç vaxt unutmayacaq, eləcə də Ermənistanın dostu olan cənub qonşumuz İranın tarixi pisliyini...

"Azərbaycanla Pakistan arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub".

Bu sözləri **Azərbaycan Prezidenti İlham Əliyev** iyunun 15-də Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə mətbuata bəyanatında deyib.

"Biz Pakistana minnətdarıq ki, işğal dövründə və 44 günlük Vətən müharibəsi zamanı bizə güclü dəstək verib. Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir. Bu məhz işğal səbəbindən baş verib. Bu isə qardaş ölkə mövqeyidir. Buna görə mən minnətdaram", - deyə dövlət başçısı bildirib.

"Biz həmçinin müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə etdik əvvəllər keçirdiyimiz birgə hərbi təlimlərin sayını artırmaq barədə razılığa gəldik. Buna ehtiyac var, çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik zonaları çoxalır".

Bunu da ali qonaqla keçirdiyi mətbuat konfransında İlham Əliyev söyləyib.

Məlumdur ki, İslam dünyasının bu üç mühüm dövləti - Azərbaycan, Türkiyə və Pakistan arasında xüsusən də son illər əsl qardaşlıq münasibətləri formalaşıb. Üç dövlət vaxtaşırı ortaq hərbi təlimlər keçirir, faktiki bir "yumruq" kimidir. O dərəcədə ki, bəzi təhlilçilərə görə, onlar arasında artıq üçtərəfli strateji müttəfiqlik müqaviləsinin imzalanmasının vaxtı çatıb.

Getdikcə daha da qəlizləşən qlobal və regional şərtlər fonunda belə bir ortaq sənəd imzalanmalıdırmı? Xüsusən də hərbi-strateji sahədə Azərbaycan və Pakistanın əməkdaşlığı hansı yeni perspektiv vəd edir?

**Politoloq Murad Sadəddinov "Yeni Müsavat"a bildirdi ki, artıq de-fakto Azərbaycan-Türkiyə-Pakistan üçlü ittifaqı formalaşıb:** "Üçlü ittifaqın hüquqi baxımdan reallaşdırılması qalır ki, gələcək perspektivdə bu da baş verə bilər. Azərbaycanla Türkiyə, Azərbaycan Pakistan, eləcə də Türkiyə ilə Pakistan arasında əməkdaşlıq, müttəfiqlik istiqamətində bir sıra mühüm sənədlər imzalanıb. Bu sənədlərin əksəriyyəti əslində üçlü ittifaqı rəsmiləşdirmək yolunda baza sənədləri hesab etmək olar. Yəni həmin sənədlərə əsaslanıb üç ölkə birgə müttəfiqlik sənədi hazırlaya və imzalaya bilər. Azərbaycan-Türkiyə-Pakistan geosiyasi üçbucağı qurulub. Qarşılıqlı səfərlər və təmaslar sıxlaşır. Bu isə üçtərəfli əlaqələrin inkişafına, həm də səmərəli fikir və təcrübə mübadiləsinin aparılmasına xidmət edir.

2021-ci il iyul ayının 27-də Milli Məclisdə Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüşündə Bakı Bəyannaməsinin imzalanmasını da bu xüsusda qeyd etmək lazımdır. Bu, tarixi-mənəvi və siyasi-strateji baxımdan olduqca mühüm əhəmiyyətə malikdir, eləcə də dost, qardaş və strateji tərəfdaş olan üç ölkə arasında çoxşaxəli münasibətlərin yeni mərhələdə daha da möhkəmləndirilməsinə xidmət edən, tərəflər üçün yeni perspektivlər yaradan sənədlərdən biridir. Tərəflər arasında parlamentlərarası üçtərəfli əməkdaşlıq formatının təsis edilməsi təkcə qanunverici hakimiyyətlər arasında münasibətlərin inkişafı baxımından müstəsna önəm daşımırdı, eyni zamanda, siyasi məzmuna malik olmaqla strateji işbirliyinin güclənməsinə töhfə verib. Ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişafı da yüksələn xətt götürüb. Hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi istehsal sahələrində Azərbaycan Pakistan və Türkiyənin üçtərəfli əməkdaşlığı üçün işlər həyata keçirilir. Regional və beynəlxalq əhəmiyyətə malik geostrateji reallıqların yarandığı yeni dönəmdə hər üç ölkə müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsində, bir-birinin milli maraqlarının beynəlxalq müstəvidə qorunmasında güclü siyasi iradə nümayiş etdirir. Türkiyə, Pakistan və Azərbaycanın strateji müttəfiqliyi Avrasiyada yeni aparıcı güc mərkəzinin formalaşmasını şərtləndirir.

Bu üç dövlət beynəlxalq müstəvidə , regional məsələlərdə bir-birinə ən yüksək səviyyədə dəstək verir. Azərbaycan, Türkiyə və Pakistanın ortaq müttəfiqlik sənədi imzalaması üçün maneələr demək olar ki, yoxdur. Belə bir ittifaqın rəsmi sənədlə rəsmiləşdirilməsi hər üç ölkə üçün yeni imkanlar açar. Eyni zamanda bu ittifaq dünyada ən səmimi müttəfiqlik hesab olunacaq. Azərbaycan-Pakistan-Türkiyə əməkdaşlığı bütün istiqamətlərdə daha da dərinləşdirilməkdədir. Gələcəkdə bu əməkdaşlığın nəticəsində üç dövlətin dünyada təsir imkanları artacaq".

**Ekspert onu da vurğuladı ki, artıq Azərbaycan Ordusu 21-ci əsrin tələblərinə cavab verən ordular sırasına daxil olan silahlı qüvvələrdir. Bu səviyyəyə gəlib çatmağımızda Azərbaycan Ordusunun Türkiyə və Pakistan ordusu ilə birgə təlimlərinin də ciddi əhəmiyyəti var:** "Azərbaycan miqyasca kiçik dövlət olsa da müasir, güclü ordusu olan dövlətlər sırasındadır. Bizim ordumuzla birgə təlimlər keçirməyə dünyanın əksər ölkələri həvəs göstərirlər. Türkiyə və Pakistan isə bizə qardaş ölkələrdir və onlarla bizim birgə təlimlərimiz, müttəfiqliyimiz tamamilə təbiidir. Bu üçlük bir-birinə o dərəcədə sıx bağlıdır ki, istər siyasi, istər hərbi ittifaq təbii proses olaraq meydana gəlir. Azərbaycanın istənilən bölgəsində Azərbaycan, Türkiyə və Pakistanın bayraqlarını bir yerdə görürük. Yəni bu üç dövlətin birliyinə bütün ictimaiyyət dəstək verir. Azərbaycan Prezidenti İlham Əliyev müharibə zamanı bəyan etmişdi ki, biz bundan sonra biləcəyik kim bizim həqiqi dostumuzdur və münasibətimizi məhz bu prizmadan quracağıq. Türkiyə və Pakistan bizim yanımızda oldular. Dediyimiz kimi, Azərbaycan-Türkiyə-Pakistan birliyi artıq uzun müddətdir qurulub".

**❑ Etibar SEYİDAĞA,**

Yeni MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

**Aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində fəaliyyətə başlayan Laçın sərhəd-buraxılış məntəqəsindən getdikcə daha çox sayda erməni keçib-getməkdədir. Əlbəttə, bu da qaldırılan hay-küylərə rəğmən, postun qanuniliyi və legitimliyinin qəbul edilməsi anlamına gəlir. Vəziyyətin belə inkişafı isə şübhəsiz ki, Ermənistanda Rusiyaya bağlı radikal-revanşist qüvvələri və o cümlədən Rusiyanı narahat etməyə bilməzdi.**

# Laçın postuna xain hücumun ilginc pərdəarxası - bədəli ağır olacaq, həbslər də uzaqda deyil!

## Ekspertlər Bakının yeni "təhlükəsizlik xəritəsi"ndən danışdılar; nə qədər ki, sülh sazişi yoxdur və Qarabağda qanunsuz silahlı dəstələr qalır...



Laçındakı nəzarət-buraxılış postunun iyunun 15-i səhər atəşə tutulması və bir sərhədçimizin yaralanması ən əvvəl bu imperativdən qaynaqlanır. Yəni açıq-aşkardır ki, hədəf həm də Laçın postundan istifadə edən Qarabağdakı dinc erməni əhalini qorxu altında saxlamaqdır. "**Yeni Müsavat" bildirir ki, Azərbaycan XİN-in bəyanatı bu mənada tam yerindədir.**

**Sitat:** "Bu hərbi təxribat Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüz olmaqla yanaşı, Azərbaycan tərəfdən sərhəd-buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə, erməni sakinlərin təhlükəsiz, sərbəst və maneəsiz keçidinə, habelə Laçın yolu ilə hərəkətinə maneçilik törətmək məqsədi daşıyır. Buraxılış məntəqəsindən erməni sakinlərin heç bir çətinlik olmadan sərbəst hərəkətini həzm edə bilməyən Ermənistanın bu hərbi təxribatı Ermənistanın Azərbaycanla münasibətlər qurmaqda və sülh prosesində maraqlı olmadığının bariz nümunəsidir. Ermənistanın bu kimi hərbi təxribatlarının qarşısı qətiyyətlə alınacaq və Ermənistan tərəfinin Azərbaycanın erməni sakinlərinin cəmiyyətimizə reinteqrasiyasına mane olmaq istiqamətində cəhdləri uğursuz olacaq".

**Buna şübhə etmirik. Son məlumatlara görə, Laçın sərhəd-buraxılış məntəqəsində avtomobillərin keçidi müvəqqəti dayandırılıb.** "Baş verənlərlə bağlı hərtərəfli təhqiqat aparılmayınca, eyni zamanda Ermənistan təxribata görə bütün məsuliyyəti öz üzərinə götürməyənə qədər sərhəd-buraxılış məntəqəsinin fəaliyyətində dəyişiklik edilməyəcək", - məlumatda vurğulanır.

İstənilən halda, belə təxribatlar postun sonrakı fəaliyyətinə neqativ təsir göstərməyəcək. Doğrudur, hələlik sərhədçilərimiz yoxlamaları fərq qoymadan həyata keçirirlər. Yəni Qarabağda yaşayan ermənilərdən Azərbaycan pasportu tələb edilmir. Ancaq bu da müvəqqətidir. Günün birində növbəti tələb işə düşəcək. Bunu həm də sərhəd postuna qarşı törədilən xain təxribat aktı diktə edir. Yəni nəzarət yüzdə-yüz daha da gücləndiriləcək.

Başqa sözlə, digər vətəndaşlarımız kimi, Azərbaycanın erməni vətəndaşları da yalnız Azərbaycan pasportu ilə xaricə, o sırada Ermənistana gedib-gələ biləcək, vətəndaşlıqdan imtina edənlər isə qayıda bilməyəcəklər. Təbii ki, Azərbaycan xalqına qarşı cinayətlər törətmiş canilərə münasibət məxsusi olacaq. Xüsusən də 15 iyun silahlı insidentindən sonra. Deməli, Laçın postunda həbslər də reallaşa bilər.

Şübhə yox ki, postun mühafizəsi və təhlükəsizliyini gücləndirmək üçün əlavə tədbirlər həm də o səbəbə görüləcək ki, dinc erməni sakinləri üçün də təhlükə olmasın. Amma bu, hansı tədbirlər ola bilər? Hər halda, Azərbaycan dövlətinin bu xain hücumdan sonra konkret planı və "təhlükəsizlik xəritəsi" olmamış deyil.

İş orasındadır ki, ermənilər hərbi təxribatları azaltmırlar. Postumuza hücum olan günü Füzuli, Naxçıvan istiqamətində, habelə Gorusdan mövqelərimiz atəşə tutulub. İyunun 15-də Zəngilan istiqamətində də ağır döyüşlər getməsi xəbəri yayılıb. İyunun 16-da isə yenə Şuşa və Gədəbəy istiqamətindəki mövqelərimiz atəşə tutulub. Eləcə də Naxçıvan yenə atəşə məruz qalıb. Onu da qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin Zəngilan istiqamətində təxribata başladığı post darmadağın edilib. Düşmən postunun dağıdılmasının görüntüləri yayılıb.

**Yeri gəlmişkən, deputat Zahid Oruc son hadisələrdə Qərbi ittiham edib:** "Ssenari eynidir - NATO qüvvələrini Gümrüyə gətirsinlər. Bu ilin martında Foq Rasmussenin əvvəlcə Cermuxa gəlib Azərbaycanın "hərbi hücumu"nu pisləməsi, ardınca Laçın sərhəd punktuna yaxınlaşıb görüntülər paylaşması, Qarabağda erməni əhalisinin "humanitar böhran"ını qabartması Ermənistana casus missiyası göndərən NATO-nun, onun əsas yönləndiricisi Amerikanın birbaşa sifarişi idi. Ağdama, Ağdərəyə bir dəfə də olsun gəlməyən keçmiş baş katib indi ölkəmizə sistemli hücumlar edir və İrəvandan, o cümlədən Xankəndindən rus hərbi birləşmələrini çıxarıb Avroatlantik Alyansın qoşunlarını yerləşdirmək istəyənlərin sözünü deyir".

**Hərbi ekspert Azad İsazadənin qəzetimizə bildirdiyinə görə, Qərb belə gərginliyi xoşlamır:** "Onun marağı yoxdur ki, hadisələr qaynar fazaya keçsin. Ona görə hesab edirəm ki, Ermənistandakı ruspərəst qüvvələrdən istifadə edilərək müvəqqəti gərginlik yaradılır. Laçın keçid məntəqəsinə hücumun ermənilərin öz təşəbbüsü ilə törədilməsini istisna etmirəm. Onlar vəziyyətdən istifadə etməklə hansısa addım atıblar. Zəngilan istiqamətində, yəni Şərqi Zəngəzurda təxribatlar isə Rusiyaya yaxın güclərin işinə oxşayır. 90-cı illərdə də olub, 2-ci Qarabağ müharibəsinə qədər də naməlum istiqamətdən atəş açılırdı, sonra ermənilərlə azərbaycanlılar bir-birinə qarşı müharibə aparırdı. Burada məqsəd inamı pozmaq, qarşılıqlı etimad yaranması fürsətini korlamaqdır. Yəni birdən yaxınlaşma olar, sülhə doğru addımlar sürətlənər, bölgədə sabitlik baxımdan bir-birinə etibar formalaşar".

**Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, nə qədər sülh sazişi yoxdur, sərhəd müəyyələnləşməyib və dəhliz açılmayıb, bölgədə gərginlik azalmayacaq, arabir az sakitləşəcək, yenidən toqquşmalar qeydə alınacaq və bu hər dəfə təkrarlanacaq:** "Hətta iki dövlət arasında sazişlərin hamısı imzalansa belə, Qarabağ separatçıları tərk-silah olunmayana, Xankəndidə bayrağımız dalğalanmayana və bölgənin tamamında Azərbaycan qanunları tətbiq olunmayana qədər bizə sakitlik yoxdur", - deyə politoloq belə düşünür.

**Onun sözlərinə görə, Ermənistan ordusunun Laçın sərhəd-keçid məntəqəsinə qarşı təxribatı Qarabağ ermənilərinə zərər vurub:** "Ermənilər bu sərhəd keçid məntəqəsindən istifadə edərək Qarabağdan çıxa və qayıda bilərlər. Təxribat nəticəsində sərhəd-keçid məntəqəsi fəaliyyətini müvəqqəti dayandırıb. Nəticədə ermənilər sərhəd-keçid məntəqəsindən istifadə edə bilməyiblər. Sərhəd-keçid məntəqəsi fəaliyyətini bərpa edəndən sonra yenə təxribat olarsa, sərhəd yenidən qapanacaq, bu, Qarabağ ermənilərinə çətinlik yaradacaq, xəstələri Ermənistana gedə bilməyəcək, ərzaq daşınması dayandırılacaq. Ona görə də Qarabağ ermənilərinin bugünkü insidentə görə iradları Ermənistan hərbçilərinə ünvanlanmalıdır".

**Politoloqun fikrincə, ABŞ Dövlət Departamenti yenə onluğa vurub:** "Bir neçə gün əvvəl vətəndaşlarını xəbər etmişdi ki, Azərbaycan-Ermənistan sərhədindən uzaq dayansınlar. Vaşinqton Ermənistan ordusunun təxribatı haqqında əvvəlcədən məlumatlı olub. ABŞ İkinci Qarabağ müharibəsinin başlanmasından bir neçə gün əvvəl də vətəndaşlarına oxşar xəbərdaqlıq etmişdi. ABŞ kəşfiyyatı dünyanın hər yerində olduğu kimi, Cənubi Qafqazda da fəaldır, təsadüfi deyil ki, Birləşmiş Ştatların keçmiş SSRİ məkanında ən böyük səfirliyi Ermənistandadır".

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədovun sözlərinə görə, bu hadisə Ermənistan ordusu tərəfindən əvvəlcədən planlaşdırılıb:** "Bu onu göstərir ki, keçid məntəqəsinin işləməsi, oradan ermənilərin girib çıxması, Xankəndinə getməsi və Ermənistana qayıtması onlara sərf etmir və onlar təxribat törədərək keçid məntəqəsinin bağlanması üçün əllərindən gələni edirlər. Əgər təhlükəsizliyə təhdid varsa, demək, sabah ermənilər erməni əsgərlərini, həmyerlilərini orada vuraraq Azərbaycana qarşı təxribat törədə bilərlər. Onlar dünyaya guya Azərbaycan Ordusunun belə bir addım atması barədə saxta məlumatlar ötürə, Azərbaycana informasiya savaşı aça bilərlər. Ermənistan ordusunun məqsədi olduqca təhlükəlidir. Vəziyyəti nəzarət altına almaq üçün Azərbaycan demarkasiya olmayan ərazilərdə bayrağımızı mütləq şəkildə ucaltmalıdır. Azərbaycan tərəfi sərhədlərin təhlükəsizliyini qorumaq üçün bütün lazımi addımları atacaq".

**Siyasi şərhçi Asif Nərimanlı Ermənistanın Laçın postunda və Zəngilan istiqamətində təxribat hücumlarının eyni planın tərkib hissəsi olduğu qənaətindədir. Onun fikrincə, əsas prosesin Zəngəzur dəhlizi ətrafında baş verdiyi görünür:** "İrəvan Laçına post qoyulmasını Zəngəzur dəhlizində də eyni rejimin - sərhəd-keçid məntəqəsinin qurulması - tətbiq ediləcəyi prinsipinə görə qəbul etdi, lakin Bakı "Laçın dəhlizi"ndə istədiyinə nail olandan sonra Zəngəzur dəhlizi məsələsini arxa plana keçirmədi. Türkiyə və Rusiyanın bu məsələdə eyni mövqedən çıxış etməsi bizim əlimizi gücləndirən amildir. Moskvada sonuncu görüşün nəticəsindən də belə görünür ki, İrəvana yalnız terminologiyadan imtina etmək vədi verilir: dəhliz ifadəsindən imtina olunur, lakin "maneəsiz keçid" təmin olunmalıdır. Baş nazir müavinlərinin üçtərəfli görüşündə də bu mövqe dəyişməz qaldı. Və Türkiyədə seçkilərin başa çatmasından sonra Ərdoğanın Bakıya ilk səfərində Zəngəzur dəhlizi yenidən gündəmə gəldi, bunun reallaşması istiqamətində daha intensiv işləməklə bağlı müzakirələr aparıldı. Bu situasiyada Ermənistan Laçında postu ləğv etmək və Zəngəzurdan "maneəsiz keçid" verməmək prioritetini seçib. İndiyə qədər bunu ritorika ilə dilə gətirirdilərsə, görünür, artıq praktiki müstəvidə hərəkətə keçiblər".

**Təhlilçi güman edir ki, beynəlxalq müstəvidə Laçın postu ilə bağlı Bakıya təzyiq cəhdlərinin nəticə verməməsi fonunda atəşin açılmasının birdən çox hədəfi ola bilər:** "Postda indiyə qədər təmin edilən təhlükəsizlik şəraitini pozurlar; təxribatla postda hərəkəti dayandırırlar: bu, Qarabağa kənar müdaxilənin qarşısını almaq baxımından Bakının istifadə edə biləcəyi amil olmaqla yanaşı, erməni əhalisinin postdan istifadəsini arxa plana keçirilməsi baxımından Ermənistana, Rusiyaya və separatçılara sərf edən məqamdır, çünki ermənilərin postdan istifadəsi onlarla təmasların qurulmasına və təbii reinteqrasiyaya şərait yaradır. Amma postun bağlanmasını beynəlxalq müstəvidə Bakıya təzyiq üçün istifadə edə bilərlər. Bu, İrəvana Zəngəzur dəhlizi ilə bağlı mövqeyini gücləndirmək, ruslara və separatçılara erməni əhalisi ilə azərbaycanlıların təmaslarının qarşısını almaq üçün lazımdır".

**Ekspertə görə, Laçın postunun atəşə tutulmasından sonra Zəngilanda - Zəngəzur dəhlizi istiqamətində təxribat hücumlarının da "dəhliz planı"na qarşı praktiki müstəvidə atılan addım olduğu bəllidir:** "Ötən ayın sonunda bu istiqamətdə erməni diversiya qrupunun hücumu da buna hesablanmışdı. Diqqətçəkən məqamlardan biri də Ərdoğanın Bakı səfərindən sonra Zəngəzur dəhlizinə problem yaradan ölkənin İran olduğunu açıqlaması idi. Təxribat hücumlarında Rusiyanın maraqları olduğu kimi, İranın da bu və ya digər formada iştirakı istisna edilməməlidir. Burada Rusiya ilə İranın maraqlarının uzlaşdığı və toqquşduğu məqamlar maraqlıdır: hər iki tərəfin Laçın postunda maraqları uzlaşır, Zəngəzur dəhlizində toqquşur; bölgədə İranın Ermənistana dəstəklə "dəhliz planı"nı təxirə salmaq istədiyi, Moskvanın isə Bakının adekvat addımlarının İrəvana "dərs olması" və rusların dayanacağı "maneəsiz keçid"in önünün açılacağı perspektivinə hesablanan mürəkkəb oyun gedir".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# ABŞ-ın yeni səfiri gəlir - Bayden Azərbaycan siyasətini dəyişir?

## Tofiq Zülfüqarovdan səfir təyinatı ilə bağlı gözləntilər

**Rusiya Prezidenti V.Putin bir neçə gün öncə Azərbaycana yeni səfir təyin etdi. Bu, Mixail Yevdakimovdur. Özü də köhnə səfir Mixail Boçarnikov öz missiyasını başa çatdıran kimi. O Boçarnikov ki, işğaldan sonra Şuşanı ziyarət etmiş, bu addımı ilə də Ermənistanda isterikaya səbəb olmuşdu.**

ABŞ-ın ölkəmizdəki səfir postu isə düz bir ildir boşdur (sonuncu elçi Orl Litzbergerin səlahiyyəti keçən ilin iyulunda bitib). Ancaq deyəsən, tilsim qırılıb. Belə ki, bugünlərdə Senatın Xarici Əlaqələr Komitəsi ABŞ prezidenti Co Baydenin Azərbaycanda səfir vəzifəsinə namizəd irəli sürməsi ilə bağlı dinləmələr keçirib. Əgər təsdiqlənərsə, komitə karyeralı diplomat Mark Libbinin bütün Senat tərəfindən təqdir edilməsi üçün yolunu açacaq.

Xatırladaq ki, Mark Libbinin namizədliyi 2022-ci ilin may ayının 25-də irəli sürülüb. Dinləmələr zamanı o deyib ki, əgər təsdiqlənərsə, ABŞ-ın Azərbaycanla Ermənistan arasında ədalətli və davamlı sülh sazişini təşviq etmək səylərini dəstəkləyəcək. Vurğulayıb ki, ərazi bütövlüyü, suverenlik, region sakinlərinin, o cümlədən "Dağlıq Qarabağda yaşayanların hüquq və təhlükəsizliyi məsələlərinin həlli istənilən möhkəm və layiqli sülh üçün vacibdir".

"Bu münaqişənin hərbi yolla həlli yoxdur və ABŞ zorakılığı və ya zorakılıqla bağlı təhdidləri pisləməyə davam etməlidir. Amma Birləşmiş Ştatların və bizim avropalı tərəfdaşlarımızın köməyi ilə tərəflər razılığa gəlməyə hər zamankından daha çox yaxındır və əgər məni təsdiq etsələr, Bakıda fəal və israrlı iş sayəsində bu məsələdə onlara kömək etməyi öhdəmə götürürəm", - Libbi davam edib.

**Onun sözlərinə görə, sülh sazişinin imzalanması hələ ilk addımdır.** "Məni təsdiqləsələr, mümkün nizamlanmanın həyata keçirilməsini dəstəkləmək üçün Bakıdakı səfirliyin idarələrarası qrupuna rəhbərlik edəcəyəm",- o deyib.

Libbinin fikrincə, sülh sazişinin uğurla həyata keçirilməsi "ABŞ və Azərbaycan arasında daha dərin əlaqələrə yol açacaq" ki, bu da bölgəni sabitləşdirəcək və "münaqişədən faydalanaraq öz zərərli təsirlərini genişləndirməyə çalışan" rəqiblərin meydana çıxmasının qarşısını alacaq.

Diplomat həmçinin qeyd edib ki, sülh sazişi Vaşinqton və Bakıya münasibətləri, xüsusən də terrorizmlə mübarizə, sərhəd, enerji və dəniz təhlükəsizliyi sahələrində əlaqələri yeni səviyyəyə qaldırmağa imkan verəcək ki, bu da ABŞ-ın milli təhlükəsizliyinə xidmət edir. Libbi habelə Bakının Ukraynaya humanitar yardımlarını yüksək qiymətləndirib.

Erməni lobbisi Libbinin təyinatını nə dərəcədə əngəlləyə bilər? Səfir təyinatı alarsa, Şuşaya gedəcəkmi?

**Bu arada Rusiyadakı "Novıye izvestiya" nəşri iddia edib ki, Vaşinqton Azərbaycanla münasibətdə dönüşə hazırlaşır.** "Prezident Baydenin fikrincə, Rusiyanı Cənubi Qafqazdan qovmağın və Bakını regionda əsas müttəfiqə çevirməyin vaxtı çatıb. Bunun üçün də ABŞ Prezidenti Bakıya erməni lobbisi ilə heç bir əlaqəsi olmayan yeni səfiri - Libbini göndərmək qərarı verib", - deyə nəşr iddia edib.

Belədirmi? **Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** "Yeni Müsavat"a bildirdi ki, əvvəllər erməni lobbisinin Azərbaycana səfir təyinatlarına maneələr yaratması halları olub, erməni lobbisi özlərinə yaxın olmayan diplomatların Azərbaycana səfir təyin edilməsinə əngəl olmağa çalışıblar: "Libbinin də təyinin qarşısını almaq cəhdlərinin ediləcəyi istisna deyil. Lakin ABŞ qanunvericiliyi ölkənin prezidentinə Senatın dəstəyi olmadan da səfir təyin etmək səlahiyyəti verir. Yəni Libbinin səfir göndərilməsində ABŞ Prezidenti qərarlıdırsa, bu təyinat Senatdan, Konqresdən keçməsə belə, Co Bayden həmin şəxsi Azərbaycana səfir təyin edə bilər. Odur ki, erməni lobbisi cəhdlər etsə də nəticəsi olmayacaq. Mark Libbi təcrübəli diplomatdır. Azərbaycanın maraqlarına cavab verən bəyanatları onun səsləndirməsi bununla bağlıdır ki, həmin bəyanatlar ABŞ administrasiyasının, Dövlət Departamentinin mövqeyidir. Libbi bu mövqeyi bildiyi üçün məhz ona uyğun açıqlamalarla çıxış edir.



O ki qaldı Mark Libbinin səfir təyin olunacağı halda Şuşaya gedib-getməyəcəyinə, bu məsələ səfirin şəxsi münasibətindən asılı deyil. ABŞ administrasiyası, Dövlət Departamenti səfirin nə zaman Şuşaya səfər etməsini məqbul hesab edəcəksə, həmin vaxt da səfər reallaşacaq. Səfirin kim olmasından asılı olmayaraq belə olacaq".

**Tofiq Zülfüqarov həmçinin qeyd etdi ki, ABŞ administrasiyası Azərbaycanın bu bölgədə vacib ölkə olduğunu bilir:** "Onu da bilir ki, Ermənistan-Azərbaycan məsələsində vəziyyətin inkişafı indiki halda Azərbaycandan asılıdır. Laçında Azərbaycan Dövlət Sərhəd Xidmətinin sərhəd-buraxılış məntəqəsinin açılması və digər baş verənlər Azərbaycanın mövqeyinin güclü olduğunu bir daha nümayiş etdirib. Rusiya və Qərb həmişə olduğu kimi, öz aralarında gedən rəqabəti yenə də bu bölgədə gücləndiriblər. Rusiya mediasında yazılanlar da bunu göstərir. Rus mediası Ermənistan cəmiyyətinə mesaj verir ki, Rusiya Ermənistanı, ABŞ Azərbaycanı dəstəkləyir və Nikol Paşinyan Azərbaycanı dəstəkləyən Amerikanın yanındadır. Məqsəd Ermənistan cəmiyyətini Paşinyana qarşı qaldırmaq, onda anti-Amerika əhval-ruhiyyəsini körükləməkdir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Arazdəyəndən Araza və Xəzərə qəsd: Tehrandakı terrora bənzər Laçın təxribatı

**15 iyunda Ermənistanın Laçın istiqamətində həyata keçirdiyi xain hücum mənə yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə qarşı həyata keçirilən terror aktını xatırlatdı. Təkcə ona görə yox ki, İran Qarabağ zəfərimizi heç cür həzm edə bilməyərək, Ermənistanın hələ qeyri-müəyyən olan sərhədlərini özünün "qırmızı xətti" saymaqda davam edir.**

**Elşad PAŞASOY**
epashasoy@yahoo.com



Həm də ona görə ki, İranda bizim diplomatlarımıza qarşı terror aktı həyata keçirilmişdisə, Ermənistanla şərti sərhəddə də bayrağımızı asmaq istəyən sərhədçimiz hədəfə alındı. Hər iki güllə dövlətimizə, bayrağımıza atıldı...

Düzdür, Ermənistanla hələlik diplomatik münasibətlər mövcud deyil. Lakin Azərbaycan neçə müddətdir səbr edir, danışıqlarda əsəblərini və vaxtını xərcləyir, qarşı tərəfin islah olunacağını gözləyir, sülh müqaviləsinin imzalanacağına, diplomatik münasibətlər daxil, digər dondurulmuş münasibətlərin bərpasına ümid edir. Amma bunun qarşılığında Ermənistan istiqamətindən atəş açıldı. Özü də bu, 44 günlük müharibədən, Nikol Paşinyanın imzaladığı təslimçilik aktından sonra belə, Qazaxdan Tovuza, Laçından Sədərəyəcən artıq adi hal almış atəşkəs pozulması deyildi, bu, Azərbaycan bayrağının qaldırılması törənində əl atılmış alçaq təxribat idi. Düzdür, hərbçimizi yaralayan snayper sıradan çıxarılıb, amma məsələ bununla bitməməlidir və bitməyəcək də! Əgər Ermənistan istəyirsə ki, Azərbaycan bayrağı Laçındakı sərhəd-nəzarət postunda, yaxud Dığ kəndi ilə üzbəüz yox, məsələn, Gorusun mərkəzində dalğalansın, onda bu xəstə ölkənin arzularını niyə də yerinə yetirməyək?..

Heç şübhəsiz ki, burada digər maraqlı qüvvələr də var, gərginliyi tətikləyirlər. Ermənistanda Rusiya-Qərb savaşı gedir. Bu oyuncaq ölkəyə hakim olmaq istəyən Qərblə şimal qonşumuz müxtəlif adlar altında "partizan müharibəsi" aparırlar. Məsələn, ABŞ qəfildən Vedibasar bölgəsində peyda olur və deyir mən burada atalar demişkən, "xış kötüyü çıxaracağam". (Ata-babalarımız bu haqda danışardılar. Biri digərinə sataşmaq üçün gedib ona məxsus meşəliyi qırarmış və deyərmiş ki, mənə torpağı əkmək üçün xış lazımdır, onu da buradakı ağaclardan doğrayıb hazırlayacağam.) Nə baş verdi ki, birdən-birə ABŞ okeanın o tayından gəlib Arazdəyəndə metallurgiya zavodu tikmək eşqinə düşdü? Guya Ermənistana ürəyi yanırmış, buradakı işsizlərə görə töhfə vermək istəyib?

Məsələnin ekoloji tərəfindən çox danışılıb və Azərbaycan rəsmi, qeyri-rəsmi kanallarla etirazlarını davam etdirir. Heç şübhəsiz, burada tikiləcək metallurgiya zavodu Araz çayındakı onsuz da fəlakətli olan durumu daha da ağırlaşdıracaq. Bu da olacaq ABŞ-ın Xəzər dənizinə "töhfəsi". Azərbaycan dövləti gələcəkdə Xəzərin suyunun şirinləşdirilməsi və içməli hala gətirilməsi layihəsi barədə düşünür. ABŞ isə qəfildən ortaya çıxıb deyir ki, ay Ermənistan, sən almanlarla birlikdə Qafan mis-molobden mədənləri vasitəsilə Oxçuçayın anasını ağladıbsan, mən də gəlim əlimdən, dilimdən, belimdən gələn zəhəri qusum Araza! Bu, nə müttəfiqlik, nə dostluq, yoldaşlıq?!

**Görünür,**
***"Arazı ayırdılar,***
***Lil ilə doyurdular..."***

bayatısına amerikasayağı dəyişiklik hazırlanır, bu dəfə lil deyil, yeni zəhərli tullantılardır. Onsuz da Ermənistan on illərdir Araza ən müxtəlif tullantılar axıdır, İğdırdan Naxçıvana gələrkən Arazın o tayında, Qərbi Azərbaycanın Vedibasar mahalında havaya qalxan zəhərli tüstüləri müşahidə edərkən mənzərəni təxmin eləmişdim. İndi də Amerika... Özü də Naxçıvanın "qulağının dibində".

Necə olur ki, ABŞ şirkətləri Qarabağda daşı daş üstə qoymağa maraq göstərmirlər, müxtəlif bəhanələr gətirilir, amma... Necə olur ki, ABŞ-ın Bakıdakı elçiliyindən kimsə Şuşaya getmir, amma amerikanların səsi Arazdəyəndən gəlir? Qəti şəkildə şübhə etmirəm ki, zavod məsələsi iqtisadi məsələ deyil, burada daha çox qeyri-iqtisadi motivlər var. Bir zavodla Rusiyanın Ermənistandan çıxarılması, rus şirkətlərinin küncə sıxışdırılması təbii ki, real deyil. Bu zavodun İrana qarşı casus şəbəkəsinin toplaşma yerinə çevriləcəyi daha çox inandırıcıdır. Amma maraqlıdır, İsrailin Zəngilanda camışçılıq ferması açmasından təşvişə düşən və yuxusu qaçan İran ABŞ-ın Ermənistandakı zavod oyununa sakit yanaşır. Bəlkə ABŞ-ın bu günlərdə İranın bəzi aktivlərinin "don"unu açmasının qarşılığıdır bu sükut? İran onda ayılacaq ki, görəcək "metallurgiya" zavodunda onun özünə qarşı hərbi əməliyyatlarda istifadə ediləcək sursatlar istehsal olunur, qoy hələ yatsın, dost-düşmənini qarışdırsın...

İrandakı səfirliyimizdəki teraktla bağlı Bakının Tehrana verdiyi notadan məmnun olan paytaxtlar - Vaşinqton başda olmaqla - normalda Azərbaycan sərhədçisinə - özü də sərhəd qapımızda dayanan vətəndaşımıza - qarşı terror törədən Ermənistana qarşı istənilən sərt addımlarımıza da normal mövqe sərgiləməlidir. Kimsə bu terror aktından sonra Azərbaycanı Laçındakı sərhəd qapısını bağlamaqda ittiham edəcəksə, o halda terrorçu Arturun yanında yer almış olacaq.

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023



# Parlament büdcəyə dəyişiklikləri təsdiqlədi

## Milli Məclisdə Ermənistanın təxribatına etirazlar və "taksi müzakirəsi"

**İyunun 16-sında Milli Məclisin növbəti iclası Sahibə Qafarovanın sədrliyi ilə keçirildi. Cari məsələlər zamanı deputat Fazil Mustafa çıxışında 15 iyunda törədilmiş erməni təxribatından bəhs edərək bildirdi ki, bu gün Azərbaycanın sərhəd bölgələrindən Ermənistan işğalçı dəstələri və onu dəstəkləyən Avropanın, İranın addımları nəticəsində ölkəmizə qarşı təxribatlar törədilir.**

"Bu məlumatlar biz tərəfdən həyəcanla izlənilir. Amma orada olan hərbçilərimizin taleyini həm də burada düşünməliyik" deyən F.Mustafa Youtube kanallarında və digər platformalarda hərbçilərimizin pensiya təminatı ilə bağlı narazılıqların yayıldığını qeyd etdi. Bildirdi ki, 2006-cı ilədək hərbi xidmət keçmiş hərbçilərimizin pensiya kapitalının yığılmaması səbəbindən pensiya təminatında problemlər yaranıb. "Bu gün birinci zərbəni kim alır? Hərbi qulluqçularımız. Onların hansısa şikayəti olmamalıdır. Bunların konkret şikayətləri əsasında dərhal addımlar atılmalıdır", - deputat əlavə etdi.

**F.Mustafa dedi ki, maliyyə naziri Samir Şərifov hərbçilərin problemlərinə operativ reaksiya verir, onların həlli istiqamətində addımlar atır, amma bu, bütün məmurlara xas xüsusiyyət deyil:** "Hərbçi bizim üçün ən öndə gələn təbəqədir, bu təbəqəni incitmək olmaz. Odur ki, bu məsələlər həllini tapmalıdır".

**Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri Soltan Məmmədov** Milli Məclisin iclasında Fransaya son səfəri barədə həmkarlarını məlumatlandırdı. Bildirdi ki, Fransa Milli Assambleyasının Azərbaycanla dostluq qrupunun rəhbəri Pyer Vatan və qrupun üzvləri ilə görüşüblər: "Görüşdə iki ölkə arasında münasibətlərə dair bir çox məsələlər ətrafına müzakirəmiz oldu. Fransalı həmkarlarımız da son illərdə ölkələrimizin qarşılıqlı münasibətlərində yaranan anlaşılmazlıqlardan narahatdır. Fransanın Cənubi Qafqazla bağlı siyasəti, xüsusilə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində tutduğu mövqeyi heç də Fransadakı bütün siyasətçilər dəstəkləmir".

**Deputat Musa Qasımlı da Ermənistanın son təxribatından bəhs edərək dedi ki, ötən gün bizim ərazimizdə terrorçu Ermənistan tərəfindən atəşin açılması Ermənistanın ağıllanmadığını göstərir.** "Hamı bilir ki, bu gün Azərbaycanın Gürcüstan, Türkiyə, Rusiya, İranla sərhədlərimiz bağlıdır. Amma Ermənistanla sərhədimiz açıqdır. Ermənistan bunu qiymətləndirə bilmir. Ermənistan ağıllanmaq istəmir və İranla birgə regionu qarışdırmağa çalışır" - M.Qasımlı bildirdi.

**Deputat qeyd etdi ki, bu gün Azərbaycan əsgərinə, Azərbaycan dövlətinə, ordusuna, təhlükəsizlik qüvvələrinə atəş açan, buna cürət edən şəxs dərhal yerində məhv edilməlidir:** "Biz sərhədimizdən bir quşun icazəsiz uçmasına imkan verməməliyik. İnsan hüquqlarından danışan beynəlxalq təşkilatlar baş vermiş hadisəyə münasibət bildirməli, Ermənistana yerini göstərməlidirlər. Sərhəddə baş verənlərə görə bütün məsuliyyət Ermənistanın və onun havadarlarının üzərinə düşür".

**Deputat Vahid Əhmədov** da Ermənistanın təxribatından bəhs edərək bildirdi ki, iyunun 16-da Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdən Azərbaycanın Şuşa rayonu istiqamətindəki bölmələrinə atəş açılıb. "Qarabağda nə baş verir? Elə bil ki, 90-cı illər təkrar olunur" deyən V.Əhmədov xatırlatdı ki, o vaxtlar da atəşkəs elan olunurdu, ABŞ, Rusiya, Fransa yığışırdı, sülh sazişinin imzalanması istiqamətində danışıqlar aparılırdı, amma hər hansı nəticə əldə olunmurdu.

**Deputat qeyd etdi ki, nəhayət, Azərbaycan Ordusu cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın böyük hissəsinin düşmən işğalından azad edilməsi missiyasını şərəflə yerinə yetirdi. Bununla belə, indi də bəzi çevrələrin vaxtaşırı yığışaraq Qarabağ ermənilərinin hüquqlarından bəhs etdiklərini söylədi. Bildirdi ki, cənab Prezident çıxışında amnistiya məsələsinə toxundu və bu, Avropa, Amerika tərəfindən də normal qarşılandı.** "Burada İrandan başqa Rusiya da maraqlıdır ki, sülh sazişi imzalanmasın. Çünki sülh imzalanandan sonra rus hərbçilərin burda qalmasına ehtiyac olmayacaq. Rusiya məsələnin maksimim uzanmasını və hərbi kontingentinin bölgədə qalmasına çalışır", - V.Əhmədov vurğuladı və ardınca həll yolunun artıq ən yüksək səviyyədə göstərildiyini xatırlatdı: "Cənab Prezident Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə görüşündə çox yaxşı bir cümlə səsləndirdi. Bildirdi ki, "Bu sazişin imzalanmasının perspektivləri var, sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir və artıq rəsmi olaraq bəyan etdiklərini kağız üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!"

Daha sonra iclasda hökumət üzvlərinin iştirakı ilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanununda dəyişiklik müzakirə edildi. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə məlumat verdi. Təklif olunan dəyişikliyə əsasən, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin gəlirləri 33 milyard 779 milyon 500 min manat, xərcləri 36 milyard 568 milyon 800 min manat məbləğində təsdiq edilib.

Milli Məclisin 2023-cü il üçün xərcləri də artırılıb. "Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il üçün xərclər smetası haqqında" qərar layihəsində bu məsələ əksini tapıb. Layihəyə görə, parlamentin 2023-cü il üçün xərcləri 53 milyon 244 min 109 manatdan 55 milyon 794 min 109 manata qaldırılıb.

Büdcəyə dəyişikliklər və Milli Məclisin qərar layihəsi səsverməyə çıxarılaraq qəbul edildi.

Daha sonra parlamentdə son günlər ən çox müzakirə olunan məsələlərdən biri - "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili layihə barədə ətraflı məlumat verdi. Bildirdi ki, qanunlara təklif edilən dəyişikliklər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçıların qanuni maraqlarının qorunması, bu sahədə haqsız rəqabət və inhisarçılığım qarşısının alınması, daşımaların təhlükəsizliyinin, əməyin mühafizəsinin təmin olunması məqsədi daşıyır. Bakıda təqribən 28 min taksinin olduğunu deyən **T.Mirkişili bildirdi ki, taksi sürücüləri gündə orta hesabla 14-16 saat işləyirlər, qəzaların sayı çox, sürücülərin anlaqsız olması halları artmaqda, sərnişirinlərin isə şikayəti çoxalmaqdadır:** "Bakıda istifadə olunan taksi gedişlərinin 60 faizi 1.5-3 km məsafə üçün istifadə olunur. İctimai nəqliyyatdan istifadə edən sərnişinlərin sayı durmadan azalır, son bir ildə avtobuslardan istifadə 40 % azalıb, metrodan istifadə isə hələ də 2019-cu il səviyyəsinə çatmayıb. Taksi sayının əhaliyə nisbətdə yüksək olması diqqət çəkir. Bu məsələ eyni zamanda şəhər nəqliyyat sisteminin, tıxacların idarəedilməsi üçün ciddi çağırışlar yaradır. Qeyd edim ki, məsələn, İstanbulda taksi sayı üçün kvota vardır, bu il üçün kvota 17 325 ədəd müəyyən edilib, əhali 15 mln. Bakı 2.4 mln. - 28 000, hər 85 nəfərə 1 taksi, İstanbulda hər 865 nəfərə 1 taksi düşür".

**Deputat Fazil Mustafa dedi ki, bu gün Azərbaycanda taksi sürücüsü işsiz qalmış müəllim, həkim və ya başqa bir işsiz adamdır:** "Ona görə də biz digər sahələrdə problemlərimizi həll etməliyik ki, taksi sahəsinə yalnız peşəkarlar gəlsin. Tıxaclarla bağlı məsələdə də, məncə, taksini bəhanə etmək düzgün deyil. Metroda xidmət yüksək səviyyədə təşkil olunubmu ki, insanlar taksidən istifadə etməsin?! Buna bir sosial problem olaraq baxmaq lazımdır. Əgər nəqliyyat problemi kimi baxsaq, doğru nəticə əldə edə bilmərik. Əvvəlcə ictimaiyyətin fikri öyrənilməlidir. Bundan əlavə, qanunda qeyd olunur ki, taksi sürücüləri üçün təlimlər və sair keçiriləcək. Bunların hamısı da vəsait tələb edən sahələrdir. Bəs bu vəsaiti kim təmin edəcək, bunlar açıqlanmalıdır".

**Deputat Aqil Abbas bildirdi ki, qanun layihəsinin əleyhinə səs vermək niyyətindəymiş.** "Amma burada komitə sədri Tahir Mirkişili qanun layihəsini elə gözəl, yüksək səviyyədə təqdim etdi ki, layihənin çox mütərəqqi əhəmiyyətə malik olduğunu gördüm".

**Deputat qeyd etdi ki, qanun layihəsinin əleyhinə səs vermək niyyəti onda rəqəmsal inkişaf və nəqliyyat nazirinin mediadakı çıxışından sonra yaranıbmış:** "Nazir deyir ki, taksi əlçatan olmamalıdır. Bəs nə əlçatan olmalıdır: təyyarə, vertolyot? Təyyarə də bahadır".

A.Abbas taksilərin xarici şirkətlərə bağlı olmasının da arzuolunmaz olduğunu söylədi və bir misal çəkdi. Qeyd etdi ki, bir dəfə rəhmətlik Qədir Rüstəmovdan "uşaqlara arvad qohumlarının adını qoyubsan" soruşublar. Sənətkar isə "özümünkülər qırılıb ki, arvad qohumlarının adını qoyum" cavabını verib. "İndi özümüzünkülər qırılıb ki, xarici şirkətlər burada çalışır? Tahir müəllim, siz də sağ olun ki, məni fikrimdən döndərdiniz" - A.Abbas bildirdi.

**Deputat Qüdrət Həsənquliyev ilk oxunuşda müzakirəyə çıxarılan "Avtomobil nəqliyyatı haqqında" Qanun layihəsinə dəyişiklik edilməsi barədə danışarkən öncə layihə müəlliflərinə təşəkkür etdi. Amma çatışmazlıqlardan da danışdı:** "Məsələn, millət vəkillərinə məlumat verilmədi ki, Qərb ölkələrində təqribən yüz min nəfərə neçə avtobus, neçə metrostansiya düşür? Mən bir dəfə Londonla müqayisə aparmışdım ki, bizdə avtobusların sayı ora ilə müqayisədə minimum 3 dəfə azdır. Hər yüz min nəfərə düşən avtobusların, metro stansiyalarının sayına görə. Məsələn, Londondan fərqli olaraq bizdə tramvay xətləri, kanatlar və sair yoxdur. Ona görə də əslində biz sevinməliyik".

**Q.Həsənquliyevin sözlərinə görə, bu gün taksilərin sayı artıbsa və qiymət aşağı düşübsə, bu, bəlkə də az sahələrdən biridir ki, hökumətin burada uğuru var:** "Uğur da ondan ibarətdir ki, rəqabət mühiti var və rəqabət mühiti nəticəsində taksi xidmətlərində qiymətlər aşağı düşüb. Məsələn, BakuBus niyə yaradıldı? Özəl şirkətlər bu işlə məşğul olmalıdırlar. Lazım gəlsə, onlara kredit verilməlidir ki, elektrik mühərrikli avtobuslar alsınlar. Avtobusların sayını kəskin artırsaq, sizi əmin edirəm ki, bütün məsələlər qaydasına düşəcək. Bunun üçün də sahibkarlara güzəştli kreditlər vermək lazımdır. Bu barədə müvafiq icra hakimiyyəti orqanları ciddi düşünməlidir. Amma mən ümumiyyətlə bu qanun layihəsini çox məqbul sayıram. Məsələn, vaxtilə parlamentdə qaldırmışdım ki, niyə bizdə sürücünün taxoqraf kartı yoxdur? İndi bu, qanunvericiliyə daxil edilir. Yəni sürücünün çox işlədə bilməyəcəklər. Sürücü hər saat yarım-iki saatdan bir dayanıb, ən azı 10-15 dəqiqə istirahət edəcək. Yəni bilinəcək ki, bir sürücü sükan arxasında nə qədər əyləşib və sair. Sadəcə olaraq, taksilərə, taksi kimi istifadə olunan avtomobillərə dair tələblər, standartlar yüksək səviyyəyə qaldırılmalıdır. Mütləq avtomobillərin texniki və təhlükəsizlik göstəriciləri nəzərə alınmalıdır ki, hansı avtomobillərdən taksi xidmətində istifadə etmək olar? Yəni bunları etmək lazımdır və mən hesab edirəm ki, bunlar olacağı təqdirdə bu qanun uğurlu olacaq. Bu qanun ümumiyyətlə mütərəqqi qanundur, amma qeyd etdiyim kimi, neqativ hallara yol açmasın deyə mütləq metro tikintisinə ciddi vəsait ayrılmalıdır. Xarici investorlar cəlb olunmalıdır, Bakıya çoxsaylı avtobuslar gətirilməlidir".

Müzakirələrdən sonra layihə ilk oxunuşda təsdiqləndi.

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023



# Müftə ciyər kababı

Zamin HACI
zaminhaci@gmail.com

**Prometey odu çırpışdırıb insanlara verəndən sonra Olimpdəki tanrılar onu Qafqaz dağlarında bir qayaya zəncirləmək cəzasına məhkum etmişdilər. Ancaq cəza bununla bitmirdi, qartal gəlirdi, Prometeyin ciyərlərini didirdi. Sonsuza qədər. Yəni cəzanın mahiyyəti bu idi ki, nə Prometey ölməliydi, nə qartal. Hər dəfə ciyər didilib bitəndən sonra təzədən bərpa olunmalıydı.**

Qədimlərdə cəza verəndə çoxallahlı millətlər çox allahsız olublar. Yoxsa bitməz-tükənməz cəza nə deməkdir? Heç bir ümid yeri qoymurlar. Sizif haqda mifin qəhrəmanı da təxminən oxşar cəzaya məhkum edilmişdi: böyük bir daşı dağın təpəsinə qaldırmalıydı, hər dəfə zirvəyə çatanda daş dərəyə yuvarlanırdı, Sizif təzədən daşı qaldırırdı. Sizifin daşı qaldırdığı dağ da Qafqazda idimi, bunu dəqiq bilmirəm. Bircə onu bilirəm ki, bizim tərəflərdə mənasız işgəncələrin sonu görünmür. Həyat və ölüm də mənasızlaşıb, abır və həya da.

Məsələn, bizdə bir xüsusi xidmət generalı vardı, çalıb-çapmadığı, oğurlayıb soymadığı adam qalmamışdı. Təsəvvür elə, Masazırda şəxsi türməsi də varmış. İş adamlarını tutub ora salarmış, qahımlarından milyonlar alıb buraxarmış. Gün gəldi, "çərxi-fələk tərsinə dövran" elədi, təzə generallar bu əski generalın özünü tutub qoduqluğa basdılar. Əmlakları, pulları-filanı müsadirə edildi. Bir müddət içəridə qaldı, amnistiyaya salıb buraxdılar. Necə olsa, kişinin dövlət qarşısında xidmətləri olmuşdur, bəs necə! Biznesmen döyəndə, arada jurnalist də şapalaqlayırdı. Dövlətimiz isə belə xidmətləri unutmur. Unutsaq, unudularıq. Manısler demişkən.

Ancaq bugünlərdə həmin yoldaş haqda çox qəribə məlumat oxudum. Sən demə, dostumuz məhkəməyə üz tutaraq... general pensiyası tələb edirmiş (Doğrusu, burada "it əl çəkdi, motal əl çəkmədi" misalını yazmaq istədim, sonra gördüm nəsə düz gəlmir, motalın naviqasiya nöqtəsini seçə bilmirəm. Ona görə "həyasızın üzünə tüpürdülər, dedi yaz yağışıdır" ata sözü ilə kifayətlənirəm).

Doğrudan da, inanılmaz abırsızlıqdır. O boyda mərəkədən sonra sakitcə hansısa küncə, dəlmə-deşiyə çəkilmək yerinə dövlətdən yağlı pensiya tələb eləyirmiş. Dahi klassikin əsərində deyilən kimi, "bəlkə də qaytardılar" məntiqi ilə. Ancaq hətta bizim məhkəmə də bu həyasızlığa dözüm nümayiş etdirməmiş, iddianı rədd eləmişdir. İzahatı belədir: "Səni məhkəmədə general rütbəsindən məhrum etmişik, o üzdən indi adi əsgər pensiyası almalısan".

Bizim yenə əskilərdən qalma bir xarici işlər nazirimiz də var. Adını soruşsan, ana dilimizdə düzgün deyə bilməyəcək. Xarici işləri yarıtmadığı bəs deyilmiş kimi, üstəlik hansısa xidmətlərinə görə bunu futbol idarəsinə də dürtüşdürmüşlər. Bəlkə ümumi tendensiyanın qurbanı olubdur, çünki yadımıza gəlir, bir aralar dəxli oldu-olmadı, hər naziri bir idman işinə qoyurdular.

Məsələn, Ziya müəllim nəqliyyat naziri olanda arvad voleyboluna da baxırdı. Təhsil naziri badminton, Mərkəzi Bankın müdiri şahmat, vergilər naziri otüstü hokkeylə məşğulat edirdi. Nəticədə gülməli vəziyyətlər yaranırdı. Gah kimisə dopinqlə tuturdular, gah koreyalılara saxta pasportumuzu verib yarışa göndərmək istəyirdilər, bunlar da London aeroportunda ilişirdi. Getsin gəlməsin, qəribə vaxtlar idi.

Əlqərəz, indi bu yoldaş da atavizm şəklində futbol idarəsində qalmaqdadır və dünən məzəli quş buraxıbdır. Növbəti sezon birinci liqamızda futbol oynayacaq komanda sayını jurnalistlərə səhv açıqlayıbdır. Rəhbərlik 10 komanda olacağını, bu isə 12 komanda olacağını deyib. Sonra deyib jurnalistlər məni səhv başa düşüb.

Günah onda deyil ki. Günah bizdədir. Ciyərimizi şişə taxıb közün üstünə qoymuşuq, sökən sökənədir. Bitən ciyər deyil, nuşi-can...

---

**İyunun 15-i səhər Ermənistan Azərbaycana qarşı görünməmiş bir təxribata əl atdı. Laçın postu və oradakı hərbçilərimiz atəşə tutuldu. Bir sərhədçimiz yaralandı. Təbii ki, layiqli cavablarını aldılar. Amma bu fakt düşmən tərəf üçün başqa ciddi nəticələr də doğuracaq.**



# Rusiyanın Qarabağda Bakıya qarşı son oyunu - ABŞ-dan ŞOK xəbərdarlıq

## Laçın postuna atılan güllələr: Moskva separatçılara görə niyə əl-ayağa düşüb? Amerika səfirliyindən İrəvanı və "şeytan yuvası"nı məyus edən mövqe...

Rəsmi İrəvan iddia edib ki, guya insident Azərbaycan hərbçisinin Ermənistan ərazisində bayraq sancmaq istəməsinə görə baş verib. Sözsüz ki, bəhanədir. Əvvəla, həmin ərazinin Ermənistan olduğunu necə müəyyən ediblər, əgər sərhədlərin delimitasiyası və demarkasiyası həyata keçməyibsə? İkincisi, yayılan kadrlardan görünür ki, bayraq postun yerləşdiyi körpünün girişində qaldırılır.

Əsl səbəb isə əlbəttə, başqadır. Məsələ ondadır ki, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində fəaliyyətə başlayan Laçın nəzarət-yoxlama postundan getdikcə daha çox erməni istifadə etməkdə idi. Bu isə onun legitimliyinin Qarabağdakı erməni əhali tərəfindən qəbul edildiyinin sübutudur. Eyni zamanda bu, erməni əsilli Azərbaycan sakinlərinin reinteqrasiyasının sürətlənəcəyindən xəbər verirdi.

Vəziyyətin bu yöndə inkişafından, heç şübhəsiz, Ermənistanda və onun sınıq-salxaq ordusunda Rusiyaya bağlı radikal-revanşist qüvvələri, üstəgəl, Qarabağda separatçıların əsas himayədarına çevrilmiş Rusiya "sülhməramlı" kontingenti məmnun ola bilməzdi. Silahlı güllələbaranda başlıca məqsəd də elə Laçın postundan istifadə edən Qarabağdakı erməni əhalini qorxu altında saxlamaqdır. O əhali ki, onsuz da yerli xunta rejiminin güclü basqısı altındadır. Yəni sülhə ən böyük əngəl məhz silahlı separatçılar və onların himayədarı Rusiyadır.

Yaxşı ki, bunu Qərbdə, xüsusilə də sülh danışıqlarının əsas moderatoruna çevrilmiş ABŞ-da anlamağa başlayıblar.

*****

Bu arada "RİA-Novosti" iddia edib ki, ABŞ Qarabağdakı separatçıları Azərbaycanla görüşməyə çağırır və əgər qondarma qurum bu çağırışdan imtina edərsə, Bakı anti-terror əməliyyatı keçirəcək. "Vaşinqton ultimatum formasında Qarabağ nümayəndələrini (separatçıları - red.) Azərbaycan tərəfi ilə yaxın gələcəkdə amerikalı kuratorun iştirakı ilə üçüncü ölkədə görüşə razılaşmağa çağırır. Məqsəd ABŞ-ın bölgəyə daxil olmasıdır", - məlumatda bildirilir.

Mənbə həmçinin iddia edib ki, Amerikanın sülhməramlı təşəbbüsünü Qarabağdakı separatçılara qondarma rejimin "xarici işlər naziri" Sergey Kazaryan çatdırır: "Onun maraqları Azərbaycanın maraqlarına tam uyğundur".

Hətta belədirsə də, görəsən Moskva niyə əl-ayağa düşüb?

"Vasitəçi nizamlanmaya harmoniya gətirməyə, tərəfləri barışdırmağa, dil tapmağa çalışandır. Yaxın tarixdə ilk dəfə olaraq, eşidirəm ki, vasitəçi tərəfi öz vasitəçilik rolunu yerinə yetirmək üçün nizamlanma iştirakçısını (?! - red.) güc tətbiq etməklə hədələyir. Yəni zorla, hədə-qorxu ilə, şantajla danışıqlar stoluna oturmağa, vasitəçinin öz ağlında cızdığı bəzi forumlarda iştiraka məcbur edir".

Bunu Rusiya XİN sözçüsü Mariya Zaxarova "RİA-Novosti"nin xəbəri ilə bağlı deyib.

Diqqət edin, Zaxarova Qarabağdakı separatçı-cinayətkarları "nizamlama iştirakçısı", yəni müstəqil subyekt adlandırır. Çünki Rusiya üçün "yaxın xaric" ölkələrində (daxildə yox!) separatizmə dəstək imperiya siyasətinin mühüm tərkib hissəsidir. Halbuki söhbət, sadəcə, Bakı ilə erməni icması arasında dialoqdan gedə bilər.

Göründüyü kimi, separatçılardan daha çox Rusiya təlaş içindədir. Ona görə yox ki, ermənilərə canı yanır. O səbəbə ki, Azərbaycana qarşı erməni "kartı"nın, separatçı rıçaqının əlindən çıxacağından qorxur. Axı Rusiya Qarabağı da müxtəlif oyunlardan çıxdığı "arxa bağçası" sayır. Burada başqa heç kimin "meydan sulaması"nı istəmir.

Ancaq Moskva daha ərazimizdə meydan sulaya bilməyəcək. Çünki zaman və şərtlər bambaşqadır. Üstəgəl, Şuşa Bəyannaməsi, Türkiyə, İsrail, Pakistan faktorları var. Odur ki, yaxşı olar separatçı ünsürlər qulaqlarını açıb Moskvaya deyil, Bakıya qulaq assınlar. Şərtlər məlum.

Onları Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında olarkən apaydın bəyan edib: qanunsuz silahlı dəstələrin Qarabağdan tam çıxarılması və ya tərk-silah edilməsi, bütün saxta qurumların, o sırada "parlament"in buraxılması, qondarma və mifik "dövlət" vəzifələrinin hamısının ləğvi, separatçı-başı Araik Arutyunyanın təslim olması. Yalnız bundan sonra onlar hansısa əfvə və amnistiyaya ümid bəsləyə bilərlər. Əks halda, komandolarımızı və "Bayraktar"ları gözləsinlər...

*****

Məsələyə ABŞ-ın İrəvandakı səfirliyinin reaksiyası da maraqlıdır. "Yeni Müsavat"ın məlumatına görə, Armenpress-in Dövlət Departamentinə "RİA-Novosti"nin məlumatı ilə bağlı ünvanladığı sorğuya cavab olaraq, diplomatik nümayəndəlik belə bir cavab göndərib: "Biz ardıcıl şəkildə onda israr edirik ki, regionda sülhə Dağlıq Qarabağ xalqının hüquq və təhlükəsizliyinin qorunması da daxil olsun. Biz buna töhfə verən istənilən dialoqu alqışlayırıq".

Qısa cavabdan aydın olur ki, səfirliyin leksikonunda artıq nə "öz müqəddəratını təyinetmə" təklifi var, nə də status çağırışı. Hüquq və təhlükəsizliyə isə Bakı zəmanət verir - Azərbaycan Konstitusiyası çərçivəsində.

**Siyasi şərhçi Asif Nərimanlıya görə isə Qarabağda mümkün antiterror əməliyyatı öncəsi Rusiya bir növ öz oyununu oynamağa başlayıb. Onun fikrincə, Rusiya ABŞ-ı ittiham edir, o cümlədən "günah keçisi" qismində separatçıların qondarma "xarici işlər naziri" Kazaryanı göstərir**: "Reinteqrasiya və bunun ABŞ vasitəçiliyi ilə həyata keçirilməsi Moskvanın Qarabağdakı maraqlarına ciddi zərbədir, bu baxımdan, infotəxribatlarla prosesi baltalayır. Daha bir məqamı diqqətdən yayınmamalıdır: ABŞ xəbərdarlıq etsə belə, separatçıların reinteqrasiya prosesinə razılaşacaqları çətin görünür və mövcud vəziyyətdə, xüsusilə son təxribatlar fonunda antiterror əməliyyatı daha aktual görünür. Bakı antiterror əməliyyatı keçirmək qərarı veribsə, rusların bu cür infotəxribatları bunun qarşısını ala bilməyəcək".

**Bu baxımdan, onun ehtimalına görə, rusların infotəxribatı daha çox özünü "sığortalamağa" bənzəyir:** "Yeni mümkün antiterror əməliyyatında "Bakını buna sövq edən Vaşinqtondur" deyə bilməsi üçün istinad nöqtələri yaradırlar".

*****

Qarabağda denasifikasiya və demilitarizasiya prosesini ağrısız sürətləndirməyin, bütövlükdə bölgədə ədalətli və daimi sülhü tezliklə bərqərar etməyin ən zəmanətli yolu isə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanıması və sülh müqaviləsi imzalamasıdır.

"Ermənistan, sadəcə, siyasi iradə lazımdır ki, artıq rəsmən elan etdiklərini - Qarabağın Azərbaycan olduğunu kağıza köçürsünlər".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev iyunun 15-də Pakistanın Baş naziri Şəhbaz Şəriflə danışıqların yekunu üzrə mətbuata açıqlamasında bildirib.

Azərbaycan dövlətinin rəhbəri sülh sazişinin imzalanması üçün perspektivlərin olduğunu da söyləyib. Təbii ki, Ermənistan və separatçılar onlara verilən sonuncu tarixi fürsəti düzgün dəyərləndirsələr və bir daha ağılsızlıq eləməsələr...

❑ **Analitik xidmət, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

**Bəlli olduğu kimi, Ermənistan Azərbaycana qarşı növbəti təxribata başlayıb. Söhbət Naxçıvanla sərhəddə, Arazdəyəndə ABŞ investisiyası hesabına yeni metallurgiya zavodunun tikintisindən gedir. Zavodun zəhərli kimyəvi tullantıları bölgəyə, xüsusilə Araz çayına ekoloji fəlakət vəd edir. İnvestisiya ABŞ-da fəaliyyət göstərən "CS Global Investments" (sahibi Hindistan əsilli Bobbi Kanqdır) və "Virtual Funding" (sahibi Ermənistan vətəndaşı Qriqor Ter-Qazaryandır) şirkətlərinə məxsusdur.**

# Ermənistanın Kərki kələyi, yeni zavod bəhanədir? - təhlükəli gəlişmə

## İrəvan Vaşinqtonla Bakının arasını vurmaq istəyir - hayların daha bir məkri; "Azərbaycan gecikmədən öz mövqeyini ABŞ-a çatdırmalıdır..."



Bir neçə gün öncə Ermənistan tərəfi guya ərazidəki iki əcnəbi hindli işçinin Azərbaycan (Naxçıvan) tərəfdən açılan atəşlə yaralandığını iddia edib hay-küy qaldırdı, az qala Ermənistandan çox ABŞ-a güllə atıldığı qədər həyasızlığa getdi.

"Biz Ermənistanda ABŞ-a bağlı şirkətin iki mülki əməkdaşının Azərbaycan tərəfdən atəşə tutulması nəticəsində yaralanmasından dərin narahatıq. Biz sərhəd boyu təmkinli olmaq çağırışımızı bir daha təkrar edirik".

Bunu iki gün öncə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller öz twitter hesabında yazıb.

Aydındır ki, İrəvan bu avantüraya ABŞ-ı da cəlb eləmək və onu Azərbaycana qarşı qoymaq istəyir. Birinci hədəf yəqin ki, bölgəyə, xüsusən Azərbaycanın ekologiyasına ciddi ziyan vuracaq bir zavodun inşasına ABŞ səviyyəsində zəmanət əldə etməkdir. İkincisi, sülh danışıqlarında özü üçün daha əlverişli duruma nail olmaqdır. Üçüncüsü isə Kərkinin qaytarılmasını əngəlləməkdir.

**Belə ki, analitik Asif Nərimanlıya görə, belə bir zavodun Arazdəyəndə inşa edilməsi məhz Ermənistanın Kərki ilə bağlı planlarından qaynaqlana bilər:** "Bu, xüsusilə ankavların qaytarılması perspektivinin aktual olması fonunda diqqət çəkir. Anklavlarla bağlı məsələ müzakirə mərhələsindədir və burada iki variantın olduğu sirr deyil. Birinci variant danışıqlar yoludur: Ermənistan prosesi pozmaq üçün 1975-ci il xəritəsini ortaya atır, bununla SSRİ vaxtı ermənilərə verilən ərazilərə - Başkənd - iddiasını irəli sürür. Bakı buna qarşıdır və burada məsələnin danışıqlar yolu ilə həllinin çətinliyi önə çıxır. İkinci variant hərbi yoldur: bu, istisna deyil, rəsmi Bakı daha əvvəl məsələnin hərbçilər tərəfindən həll edilməsi variantının olduğuna dair xəbərdarlıq edib. Birinci variantı qəbul etməyən Ermənistan Arazdəyəndə zavod inşa etməklə ikinci variantın praktiki müstəvidə reallaşmasının qarşısını almağı planlaşdırır. Kərkinin hərbi yolla azad edilməsi variantında Arazdəyən bölgəsi keçid ərazisidir və bu bölgəyə ABŞ şirkətlərinin investisiya yatırması belə bir perspektivdə Vaşinqtonun prosesə müdaxiləsinə şərait yaradır. Beynəlxalq təcrübəyə əsasən xarici investisiyanın yatırıldığı bölgələrdə kapitalın məxsus olduğu ölkə gərginliyin əleyhinə olur. Burada İrəvanın niyyəti də Kərki kəndinin azad edilməsi perspektivinin önündə ABŞ investisiyasını qalxan olaraq istifadə etməkdir".

Bəs rəsmi Bakı mövcud vəziyyətdə hansı taktikanı seçəcək? İrəvanın avantürası və kələyi ilə bağlı ABŞ-a müraciət edəcəkmi, edibmi?

**Sabiq maliyyə naziri Fikrət Yusifov rusların əksəriyyətinin ermənilərin onlara yük olduğu düşüncəsində olmasından söz açdı:** "Otuz ilin "qalibiyyət mifindən" başı gicəllənmiş ermənilərin birdən-birə ağır məğlubiyyətə uğramaları bir millət olaraq onları ciddi psixoloji duruma salıb. İki ildir bu ölkənin radikal toplumu sakitləşmək bilmir. Ağıllarına gələn çağırışları edir, qisasçılıq hisslərini başlarının üzərində gəzdirirlər. Bu millət tarix boyu bir dili - yumruq dilini yaxşı anlayıb və həmişə, hər yerdə başı əzilib. Onların başına son yumruğu da Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu vurdu. İndi özlərinə gələ bilmirlər.

Bu toplum sakit həyat tərzi sürməyi bacarmır. Hissiyatları o qədər korlanıb ki, artıq ölçüyə gəlməyən həyasızlığa söykənmiş ambisiyaları ilə Azərbaycan torpaqlarında süni yolla yaratdıqları dövləti belə itirmək təhlükəsini anlaya bilmirlər. Bunlardan hamı bezib. Ən əsası isə odur ki, erməniləri Qafqazın səhnəsinə çıxarıb, onlardan bir alət kimi istifadə etmiş və bu gün də istifadə edən ruslar belə bu xəstə təxəyyüllü millətdən, onun yersiz, əsassız ambisiyalarından təngə gəliblər. Mən uzun illər Rusiyada yaşamış bir adam kimi, çox yaxşı bilirəm ki, Rusiya hökumətinin dəhlizlərində artıq illərdir bu narazılıqlar açıq-aydın şəkildə ifadə olunur. Sağlam düşünən ruslar Ermənistanın onlara böyük və lazımsız bir yük olduğunu yaxşı anlayırlar. Ancaq regiondakı təsirlərini itirməmək xatirinə hələ ki onların ölçüyə gəlməyən çılğınlıqlarına dözürlər. Bunun da bir sonunun olacağına şübhə yoxdur!

Ermənilər hər çirkin oyunu oynamağı bacaran bir millətdir. 44 günlük İkinci Qarabağ savaşındakı ağır məğlubiyyətdən sonra ABŞ-ın Kaliforniya Ştatının Los-Anceles şəhərində, 2021-ci ilin iyul ayının 21-də, oradakı Baş Konsulluğumuzun qarşısında toplaşmış 30-40 azərbaycanlıya qarşı meydana yığışmış 10 minlərlə erməninin törətdikləri vəhşilikdən bir epizodu hörmətli oxucularımızın diqqətinə çatdırmaq istəyirəm. Los-Anceles şəhərinin polis bölmələrinin birində çalışan, əslən azərbaycanlı olan polis əməkdaşı danışırdı ki, bu qarşıdurmadan öncə ermənilər Pikap tipli avtomobillərdə azərbaycanlıların dayandıqları yerin qarşısına gələrək, onların qarşısına müxtəlif kəsici, deşici alətlər, bıçaq, balta və digər soyuq silahlar atıb dərhal da polisə xəbər verdilər ki, azərbaycanlılar bizə hücum etməyə hazırlaşırlar. Baxın, bu millətin xislətinə, iç üzünə! Onlar hər yerdə və həmişə belə olublar və belə olaraq da qalacaqlar. Və nəhayət, Qafqaz sonda bu mayası şərlə yoğrulmuş millətdən qurtulmalıdır".

**Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri, beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli Amerikanın prosesləri tamamilə əlində cəmləmək üçün iş başında olduğunu qeyd etdi:** "Burada konkret məqsəd var. O da Birləşmiş Ştatların maraqlarını müdafiə edən bir vəziyyət yaratmaqdır. Düşünmürəm ki, həqiqətən təkcə məqsəd zavod tikməkdir, yaxud da Azərbaycanla bağlı ümumi vəziyyəti dezavantaja çevirməkdir - ölkəmiz nöqteyi-nəzərindən. Amma gedən bütün proseslər göstərir ki, bu, əslində sülh danışıqları üzərindən təşəbbüsləri əlindən götürmüş Vaşinqtonun həmlələridir, nəinki Ermənistanın.

Nəticə etibarı ilə Amerika sülh danışıqlarını əlində saxlamaq üçün təşəbbüsləri əlində saxlamağa çalışır, son olaraq, tez-tez atəşkəsin pozulması da bunu deməyə əsas verir. Digər tərəfdən, bu, Azərbaycanın qarşısını alacaqmı, yaxud Azərbaycana görəmi gəlir faktı öz əksini tapmaz. Çünki separatçı rejimlə bağlı Amerikadan verilmiş açıqlama kifayət qədər rahat şəkildə göstərdi ki, bu gedişat anti-Azərbaycan formulu yaratmağa hesablanmır. Bunu Ermənistandan hansı qüvvələr istəsə belə, bu belə deyil. Gələcək üçün Azərbaycanın bölgədə möhkəmlənməsi də ABŞ-ın milli maraqlarına zidd deyil. Ən azından İran faktoruna görə bu belədir. Sırf Kərki məsələsi üzərində Ermənistanın hansısa bir marağı ola bilər. Amma bu heç bir halda Amerikanın marağı deyil. Burada əsas məsələ sülh danışıqlarını ABŞ-ın nəzarətinə keçirmək cəhdidir".

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov hesab edir ki, ermənilər Amerika ilə Azərbaycan arasında gərginlik yaratmağa çalışır:** "Naxçıvanla sərhəddə, Arazdəyəndə ABŞ investisiyası hesabına yeni metallurgiya zavodunun tikintisi maraqlı məqamdır. Əlbəttə, Ermənistan bu məqamdan istifadə etməyə çalışacaq. Son günlər Ermənistanın Naxçıvan istiqamətində mövqelərimizi atəşə tutmasını təsadüfi hesab etmirəm. Ola bilsin, bu, məqsədlidir. İstisna deyil ki, rəsmi İrəvan Vaşinqtonla Bakı arasında gərginlik yaratmağa çalışır. Şübhəsiz ki, Azərbaycan gecikmədən öz mövqeyini ABŞ-a çatdırmalıdır. Bildirilməlidir ki, bütün məsuliyyəti təxribatı törədən tərəf, yeni Ermənistan daşıyır.

İkinci tərəfdən isə Silahlı Qüvvələrimiz öz işini görməlidir. Sözügedən metallurgiya zavodunun mövcudluğu o demək deyil ki, biz Ermənistanın təxribatlarına göz yumacağıq. Əgər qarşı tərəf belə düşünürsə, səhv edir. Ən əsas məsələlərdən biri isə budur ki, mən ABŞ-ın Ermənistanın məkrli planına gedəcəyinə inanmıram. Birincisi ona görə ki, ABŞ Ermənistana görə Azərbaycanla intriqa yaratmaq istəməz. Bu gün Bakı Vaşinqton üçün daha vacibdir, nəinki İrəvan. İkincisi, bu gün ABŞ vasitəçilikdə iddialı olan tərəfdir. Deməli, məntiqli və soyuqqanlı davranmağa məcburdur. Üçüncüsü isə Ağ Ev sırf iqtisadi maraqlarına görə regiondakı sabitlikdə maraqlıdır. Bütün bunları nəzərə alsaq, deməliyik ki, Ermənistan heç də metallurgiya zavodunun mövcudluğuna "bel bağlamamalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Zakir Həsənovdan orduya "Hazır ol!" əmri

**Müdafiə naziri Zakir Həsənov orduya Ermənistan tərəfindən törədilə biləcək təxribatın qarşısının qətiyyətlə alınmasına hər an hazır olmaq barədə göstərişlər verib.**

Musavat.com xəbər verir ki, bu barədə nazir MN-də keçirilən kollegiya iclasında bildirib.

Qeyd olunub ki, Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraiti təhlil edilib. General-polkovnik Z.Həsənov Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən mövqelərimizin intensiv atəşə tutulmasının, habelə Qarabağ iqtisadi rayonu ərazisində qeyri-qanuni hərbi daşımaların və uzunmüddətli fortifikasiya qurğularının quraşdırılması cəhdlərinin qarşısının alınması məqsədilə bölmələrimiz tərəfindən bundan sonra da zəruri cavab tədbirlərinin görülməsi, qarşı tərəfin fəaliyyətinin daim müşahidə edilməsi və istənilən təxribatın qarşısının qətiyyətlə alınmasına hər an hazır olması barədə göstərişlər verib.

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

# İcra başçılarının səlahiyyətləri artırıldı - iş keyfiyyəti də artacaqmı?

## Nüsrət İbrahimov: "İndiki halda bunun başqa yolu yoxdur"
## Natiq Cəfərli: "Bizdə səlahiyyət artımı korrupsiya və rüşvəti də artırır"

**Yerli icra hakimiyyəti başçılarının vəzifələri artırılıb. Bu, Prezident İlham Əliyevin fərmanı ilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə edilən dəyişiklikdə əksini tapıb.**

Fərmana əsasən, yerli icra hakimiyyətinin başçısı yerli səviyyədə dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi ilə bağlı aşağıdakı halları aşkar etdikdə tikinti işlərinin dayandırılmasını sifarişçiyə (podratçıya) yazılı qaydada tövsiyə edir, tikinti işlərinin dayandırılması üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyini məlumatlandırır və bu barədə bütün məlumatları Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə göndərir:

*- ərazi planlaşdırılması sənədlərinin tələblərinə əməl olunmamasını;*

*- özbaşına tikinti işlərinin qarşısının alınmamasını;*

*- tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyektinin belə icazə alınmadan tikildiyini;*

*- habelə barəsində məlumatlandırma icraatı tətbiq edilən, lakin Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq tikinti işlərinin başlanmasına əsas olmadan tikinti obyektinin tikildiyini;*

*- tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində tikinti fəaliyyətinin həyata keçirildiyini.*

Yerli icra hakimiyyəti başçısı şəhərlərdə, şəhər rayonlarında yerli səviyyədə dövlət şəhərsalma nəzarətini həyata keçirir, o cümlədən özbaşına tikinti işlərinin qarşısının alınması məqsədilə inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə ərazi nəzarət bölgüsünü aparır, həmin nəzarət bölgüsü üzrə icra hakimiyyətinin işçilərindən məsul şəxsləri təyin edir, onların əlaqə nömrələrinin və elektron poçt ünvanlarının icra hakimiyyətinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin edəcək. Bu vəzifə rayon bölgüsü olan şəhərlərin icra hakimiyyəti başçılarına aid edilməyəcək.

Qeyd edək ki, yerli icra hakimiyyətlərinin Azərbaycanda, xüsusilə də Bakı və onun ətraf qəsəbələrində qanunsuz tikintilərin həyata keçirilməsində rolu birmənalı deyil. Uzun illər boyu məhz rayon və şəhər icra hakimiyyətlərinə rüşvət verilərək tikinti norma və tələblərinə əməl olunmadan yüz minlərlə yaşayış və qeyri-yaşayış obyektlərinin tikintisi həyata keçirilib. İndiyədək sənədləşməsi mümkün olmayan belə yaşayış obyektləri - fərdi evlərin sayı 400 mindən yuxarı, qeyri-yaşayış obyektlərinin sayı isə 40 min civarındadır.

2018-ci il iyulunda Nazirlər Kabinetinin iclasında ölkə prezidenti bu məsələyə xüsusi diqqət yetirib. Prezident İlham Əliyev qeyd edib ki, qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi şəkildə cəzalandırılacaq: "Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır. Bir daha demək istəyirəm ki, ilk növbədə Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır. Bundan sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkəmizdə bir dənə də bina tikilməməlidir. Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. Həmin o adamları ən ciddi cəzalar gözləyir. Çünki biz bu qədər səy göstəririk".



Prezident bu çıxışının ardınca ölkə üzrə tikintiyə icazələrin verilməsi sahəsində bütün səlahiyyətlərin Dövlət Arxitektura və Şəhərsalma Komitəsinə verilməsinə dair sərəncam imzalayıb. Eyni zamanda Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq idarəsini komitəyə birləşdirib.

Dövlət Arxitektura və Şəhərsalma Komitəsi tərəfindən 2018-ci ildə Bakı şəhərinin 8 rayonunun, habelə ölkənin 6 rayonunun icra hakimiyyəti orqanlarının fəaliyyətinə dövlət şəhərsalma nəzarəti çərçivəsində şəhərsalma qanunvericiliyinin və normativ-hüquqi sənədlərin tələblərinin pozulması faktları aşkar edilib, bununla bağlı müvafiq nöqsanları aradan qaldırmaq məqsədilə ümumilikdə 22 icrası məcburi olan "Göstəriş" tərtib olunaraq yerli icra hakimiyyəti orqanlarına təqdim olunub. Eyni zamanda 21 fakt üzrə pozuntularda cinayət əməlləri olduğundan müvafiq məlumat ölkənin Baş Prokurorluğuna təqdim edilib.

Atılan bu addımların nə qədər effektiv olduğunu qiymətləndirmək çətindir - çünki indiki vəziyyətlə bağlı hər hansı statistik məlumat açıqlanmır. Lakin Azərbaycan hökuməti qanunsuz tikintilərin qarşısını almaq üçün mərhələli şəkildə addımlar atır. 2019-cu ildə Prezident İlham Əliyev tərəfindən "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 529 nömrəli Fərman imzalanıb. Fərmanın icrası nəticəsində mənzillərin ümumi sahəsi 8,5 milyon kvadratmetr olan 85 mindədək mənzildən ibarət 408 yaşayış binasının (çoxmənzilli yaşayış kompleksinin) dayanıqlılıq və möhkəmlik baxımından istismara yararlığı, o cümlədən istismara hazırlığı müayinə edilib, həmin müayinələrin müsbət nəticələri əsasında istismarına icazə verilib.

İyunun 14-də isə Prezident tərəfindən "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalanıb. Fərmana əsasən 2023-cü il iyunun 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla, tikinti-quraşdırma işləri başa çatmış və dayanıqlılıq və möhkəmlik baxımından müayinə nəticələri müsbət olan qeyri-yaşayış təyinatlı binaların istismarına sadələşdirilmiş qaydada icazə verilməsi nəzərdə tutulur.

**Müəyyən olunmuş qaydaya əsasən qeyri-yaşayış binalarının istismarına icazə verilməsi üçün əsas tələblər bunlardır:**

*- yükdaşıyan konstruksiyaların etibarlılıq baxımından istismara yararlılığı, yəni dayanıqlı, möhkəm və seysmik cəhətdən davamlı olması;*

*- yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi;*

*- liftlərin və mühəndis-kommunikasiya təminatı sistemlərinin istismara hazırlığı;*

*- torpaq sahəsi üzərində sifarişçinin (sahibin) mülkiyyət və ya icarə hüququnun təsbit edilməsi;*

*- qeyri-yaşayış binasının mühafizə zonalarından kənarda yerləşməsi.*

Sadələşdirilmiş icazə rejimi fərmanda müəyyən edilmiş göstəricilərə cavab verən bütün qeyri-yaşayış təyinatlı tikinti obyektlərinə şamil olunur. Həmin obyektlərin sahibləri sadələşdirilmiş icraat prosesindən yararlanmaq üçün ən geci 2025-ci il yanvarın 1-dək Fövqəladə Hallar Nazirliyinə müraciət etməlidirlər.

İndiyədək qanunsuz tikilmiş obyektlərin istismara qəbulu ilə yanaşı, bundan sonrakı dövrdə prosesin davam etməməsi üçün cəza və çəkindirici addımlar da atılır. Belə ki, özbaşına tikilmiş bütün tikinti obyektlərinin mühəndis-kommunikasiya sistemlərinə qoşulması qadağan edilir. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, tikintisinə icazə tələb olunan, lakin belə tələbə riayət etmədən inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərində sözügedən qadağaya əməl edilmədiyi halda kommunal təchizat müəssisələrinin vəzifəli şəxslərinə cinayət məsuliyyəti tətbiq olunacaq.

Bundan əlavə, tikinti və şəhərsalma sahəsində fiziki, hüquqi və vəzifəli şəxslərin məsuliyyətinin artırılması məqsədilə İnzibati Xətalar Məcəlləsində də bir sıra dəyişikliklər edilir. Dəyişikliklərə əsasən, tikintisinə icazə tələb olunan, lakin icazə olmadan inşa edilmiş tikinti obyektlərinin sifarişçilərinə münasibətdə sanksiyalar artırılır, habelə barəsində məlumatlandırma icraatı tətbiq olunan özbaşına inşa edilmiş tikinti obyektlərinə münasibətdə inzibati məsuliyyət müəyyən edilir. Barəsində məlumatlandırma icraatı tətbiq olunan tikintini (burada əsasən fərdi evlər nəzərdə tutulur) özbaşına aparan fiziki şəxslər xəbərdarlıq və ya 300-500 manat miqdarında, vəzifəli şəxslər 1500-2500 manat miqdarında, hüquqi şəxslər isə 15 000-25 000 manat cərimə olunacaqlar.

Tikintisinə icazə tələb olunan obyektlərin belə icazə alınmadan tikintisi zaman fiziki şəxslərin ödəyəcəyi cərimə miqdarı 300-500 manatdan 800-1000 manata, vəzifəli şəxslərin cəriməsi 1500-2500 manatdan 2500-4000 manata, hüquqi şəxslərin cəriməsi isə 15 000-25 000 manatdan 20 000-25 000 manata çatdırılır.

Bir neçə il əvvəl tikinti sahəsində səlahiyyətləri kəskin azaldılan yerli icra hakimiyyətlərinə yenidən nəzarət funksiyalarının həvalə olunması vəziyyəti nə qədər dəyişə bilər? Bu, yenidən tikinti sahəsində korrupsiyanın səviyyəsinin artmasına gətirib çıxara bilərmi?

**Tikinti sahəsi üzrə ekspert Nüsrət İbrahimov deyir ki, qanunsuz tikintilərin qarşısını almaq üçün indiyədək aparılan tikintilərin leqallaşdırılması vacibdir:** "Bu məsələ uzun illərdir problem kimi qarşıda durur və hökumət onun həlli yollarını axtarırdı. Prezidentin fərmanları ilə qanunsuz tikilmiş həm yaşayış, həm də qeyri-yaşayış obyektlərinin sənədləşdirilməsi asanlaşdırılır. İndi qarşıda duran əsas vəzifə budur ki, belə tikintilər bundan sonra olmasın. Göz önündə Türkiyənin acı təcrübəsi var. Buna görə də Azərbaycanda yenidən qanunsuz tikintilərin aparılmasının qarşısını almaq yolları axtarılır. İndilik mümkün görünən yeganə yol nəzarət edən orqanların səlahiyyətlərini, eyni zamanda məsuliyyətlərini artırmaqdır. Yerli icra hakimiyyəti qanunsuz tikinti aparanları aşkarlayıb, prosesi qanuni axara salmağı öyrətməlidir. Daha deməməlidir ki, gətir beş-on manat ver, göz yumum, işində ol".

**Ekspertin sözlərinə görə, qanunsuz tikintilərə görə vəzifəli şəxslərə yönəlik cəzaların ağırlaşdırılması effektiv nəzarəti qurmaq üçün vacibdir:** "Bununla bağlı bizdən də rəy alınıb ki, hansı mexanizmləri tətbiq etsək, daha yaxşı nəticə əldə edə bilərik? Hazırda nəzarət edən qurumların - icra hakimiyyətlərinin səlahiyyət və cəzasının artırılmasından başqa yol görünmür. Bunu edək, görək nə nəticə olacaq".

**İqtisadçı-ekspert Natiq Cəfərli isə bildirir ki, indiyədək Azərbaycanda tikintiyə nəzarət səlahiyyəti 14 dövlət qurumunda var:** "Yerli icra hakimiyyətləri də daxil olmaqla, bu qurumların hər biri müəyyən mərhələdə tikinti prosesinə nəzarət edir. İndi icra hakimiyyətlərinə əlavə səlahiyyət verməklə nə dəyişəcək? Çox səlahiyyət bizdə adətən korrupsiya və rüşvətin miqdarını artırır. Buna görə də düşünürəm ki, tikinti sahəsində qayda-qanuna nail olmaq üçün vahid pəncərə sistemi tətbiq olunmalı, tikintilərə icazə və onlara nəzarət bir quruma verilməlidir. Belə bir qurum rolunu əksər inkişaf etmiş ölkələrdə, elə qardaş Türkiyənin özündə böyük şəhər bələdiyyələri oynayır. Bizdə də böyük şəhər bələdiyyələri formalaşdırılmalı və tikintiyə nəzarət prosesi ona həvalə edilməlidir".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

# Nüvə alimindən SOS!: “Azərbaycan bu sahədə İran və Ermənistan qarşısında əliboş qalıb”

## Akademik Adil Qəribov: ""İraqın başına gətirdiklərini ona görə İranın başına gətirə bilmirlər ki..."

**Radiasiya Problemləri İnstitutunun yaradıcısı, uzun illər “Milli Nüvə Tədqiqatları Mərkəzi” Qapalı Səhmdar Cəmiyyətinin sədri olmuş akademik Adil Qəribov “Yeni Müsavat”a müsahibə verib. 200-dən artıq elmi əsərin, 17 müəlliflik şəhadətnaməsinin, 10 patentin müəllifi, 8 elmlər namizədi və 1 elmlər doktoru yetişdirmiş görkəmli alim Azərbaycanda nüvə sahəsi üzrə durumla bağlı həyəcan təbili çalır.**

Deyir ki, bu sahədə Azərbaycan iki dost olmayan qonşu ölkə qarşısında əliboş durumdadır: “Azərbaycan üçün real nüvə təhlükəsi yarada biləcək 2 dövlət var. Bunlar İran və Ermənistandır. Çox təəssüf ki, bu gün Azərbaycan nüvə sahəsində bu 2 dövlətə cavab verəcək durumda deyil. 2001-ci ildə yaratdığım radiasiya tədqiqatları sektoru əsasında 2002-ci ildə Azərbaycanda Nazirlər Kabinetinin qərarı ilə Radiasiya Problemləri İnstitutunu yaratdım. İnstitutun istiqamətlərini müəyyən etdim. Onun maddi-texniki bazasını demək olar ki, beynəlxalq qrantların hesabına təmin etdik. Olduqca müasir bir institut formalaşdıra bildim. 2014-cü ildə cənab Prezident bu sahənin inkişafı üçün Milli Nüvə Tədqiqatları Mərkəzi yaratmaq barədə göstəriş verdi. Hər iki təsisat Azərbaycanda nüvə enerjisindən dinc məqsədlər üçün istifadəyə hesablanmışdı. Milli Nüvə Tədqiqatları Mərkəzində kadr hazırlığını gerçəkləşdirdim. Söhbət ondan gedir ki, ölkəyə nüvə silahı ilə təcavüz olsa, biz bu təcavüzdən necə qorunacaq, necə cavab verəcəyik? Ölkəmiz, gələcəyimiz naminə bu sahədə kadr hazırlığı aparırdım. 2021-ci ildə beynəlxalq səviyyədə istinadların sayına görə mərkəzimiz Azərbaycanda birinci yerdə idi. Əfsuslar ki, 2021-ci ilin sonunda mərkəzi bağladılar!

**Akademik “Milli Nüvə Tədqiqatları Mərkəzi niyə bağlandı” sualına belə cavab verdi:** “Başım çıxmadı, anlamadım ki, Milli Nüvə Tədqiqatları Mərkəzini niyə bağladılar. Mərkəzi bir agentliyin tərkibinə verdilər. Orada mərkəz departament kimi qaldı. Bu gün həmin departamentin taleyi ilə bağlı heç bir şey deyə bilmərəm. Bu gün orada mənim tələbələrim var. Onlardan vəziyyəti soruşsalar... Belə deyək də, mənə elə gəlir ki, bu gün Azərbaycan dövləti bu sahəyə xüsusi diqqət ayırmalıdır. Bu o demək deyil ki, biz nüvə silahı hazırlayaq. Biz nüvə elmlərini, nüvə texnologiyasını inkişaf etdirməliyik. Bu gün bütün dünyada bu sahə güc göstəricisidir. Məsələn, bu gün Rusiyadan niyə qorxurlar? İraqın başına gətirdiklərini niyə İranın başına gətirə bilmirlər? Çünki bilirlər ki, əllərində nüvə materialları var və həmin nüvə materiallarını partlatsalar, NATO dövlətlərinə böyük ziyan vurula bilər. Bu nöqteyi-nəzərdən nüvə texnologiyaları, nüvə elminin inkişaf etdirilməsi güc göstəricisidir. Əlbəttə ki, mən də istəyirəm ki, Azərbaycanda mərkəzləşmiş nüvə mərkəzi



olsun. Bizə nüvə silahı hazırlamaq yox, dünya üzrə nüvə tədqiqatları sahəsində heç olmasa ilk yerlərdən birini tutmaq, bu sahədə kadr potensialını artırmaq, tədqiqat aparmaq imkanlarını leqallaşdırmaq lazımdır”.

**“Bu gün Ermənistanda belə bir mərkəz varmı” sualına isə müsahibimizin cavabı bu cür oldu:** “Ermənistanda "Metsamor" Atom Elektrik Stansiyası ilə əlaqəli ən azı 5 institut fəaliyyətdədir. Bu sahə üzrə dayanmadan tədqiqat aparırlar. İranda isə 6 mərkəz var ki, orada bu və ya digər dərəcədə uranın zənginləşməsini aparırlar. Belə vəziyyətdə Azərbaycanda Milli Nüvə Tədqiqatları Mərkəzinin ləğv edilib bir departament səviyyəsinə endirilməsi mənə elə gəlir ki, doğru addım deyildi. Azərbaycanda xüsusi statusa malik Milli Nüvə Tədqiqatları Mərkəzi yaradılmalıdır".

**Akademikin sözlərinə görə, kimlərinsə kaprizi ilə mərkəzin ləğvi düz addım olmayıb:** “Söhbət mənim ora rəhbər təyin olunmağımdan getmir. Mənim tələbələrim var ki, bu sahəni dünya səviyyəsinə qaldıra bilərlər. Azərbaycan müharibədən qalib çıxmış, bu saat dünyada öz sözünü demiş ölkə kimi nüvə sahəsindən silinib. Biz bu sahədə öz sözümüzü deyə bilərik, çünki kadr potensialımız var. Bu sahə departament kimi olmamalıdır. Mütləq şəkildə mərkəzləşmiş qurum olmalıdır ki, Azərbaycan dünya dövlətləri ilə ayaqlaşa bilsin”.

**Akademik “Bəs Azərbaycan Milli Nüvə Tədqiqatları Mərkəzinin kimlərin təklifi ilə ləğv edildi” sualı ilə bağlı dedi:** “Məni çağırdılar, dedilər ki, Adil müəllim, siz gedin elmlə məşğul olun, mərkəzdən də uzaqlaşın. Bu məsələdən heç nə anlamadım. Özümü təhqir olunmuş hesab etdim. Məni ora təyin edən cənab Prezident olub. Birdən-birə Azərbaycanda Milli Nüvə Tədqiqatları Mərkəzinin ləğv olunmasından heç nə anlamadım. Halbuki Azərbaycanın bu sahədə xüsusi bir proqramı olmalıdır. Ən mütərəqqi nüvə texnologiyalarını Azərbaycanda həyata keçirmək üçün kamil bir struktur olmalıdır. Bu işləri hansısa bir şöbə səviyyəsində həyata keçirmək mümkün deyil”.

**Həmsöhbətimiz deyir ki, Azərbaycan Milli Nüvə Tədqiqatları Mərkəzində 50-dən artıq mütəxəssis çalışıb:** “Həmin mütəxəssislər bacarıqlı kadr kimi özlərini göstərə bilmişdilər. Ən yaşlı adam mən idim, tələbələrim 40 yaşa qədər olan mütəxəssislər idi. Həmin mütəxəssislərin demək olar ki, hər birini dünyanın müxtəlif ölkələrinə göndərdik, məktəb keçib gəldilər. İndi həmin mütəxəssislər yiyəsiz kimi qalıblar. 1-2 nəfər yüksək maaşla özünə başqa sahələrdə iş tapıb. Mənim o mütəxəssislərə yazığım gəlir. Ailələrini dolandırmaq üçün başqa sahələrə getmək məcburiyyətindədirlər. Mən o mütəxəssisləri başa düşürəm, nə qədər boş-bekar oturmaq olar. Biz bu gün Rusiya-Ukrayna müharibəsində nələrin baş verdiyini görürük və nəticə çıxarırıq. Biz İran-Ermənistan birliyindən, dostluğundan özümüzə nəticə çıxarmalıyıq. Biz bir biriyin hər bir addımına hazır olmalıyıq. Qardaş Türkiyədə nüvə istiqaməti üzrə olduqca mütərəqqi addımlar atmaqdadır. Rusiya Türkiyədə 4 nüvə reaktoru tikib. Bu gələcəyə baxışdan yaranan və atılan addımdır”.

**Sözünə davam edən akademik İranın qazı və nefti ola-ola Atom Elektrik Stansiyasını niyə tikməsinə aydınlıq gətirdi:** “Bu, İranın nüvə texnologiyalarına malik olmaq istəyindən irəli gəlib. İran nəyin bahasına olur-olsun, nüvə yanacağına, onun istənilən formasına malik olmaq istəyir. Nüvə texnologiyaları olmasaydı, İran indiyə qalmazdı, parçalanıb dağılar, İraqın gününə qalardı. İraq dağıldıldı, İrana qarşı isə eyni addımı ata bilmirlər. Bilirlər ki, əllərində nüvə materialları var. Bu gün Şimali Koreya balaca bir dövlət olsa da, meydan oxuyur. Çünki nüvə silahına malikdir. Dünyada artan nüvə texnologiyaları fonunda Azərbaycanın da nüvə sahəsində güclü bir infrastruktura malik olmasına olduqca böyük, həyati əhəmiyyətli zərurət var”.

**Adil Qəribov hesab edir ki, Azərbaycanın indiki inkişaf səviyyəsi ilə nüvə sahəsində aparılan strategiyası uyğun deyil:** “İran bu sahədə sürətlə inkişaf edir. İran böyük strateji xətlər həyata keçirir. İranda artıq 60 faiz zənginləşmiş uran alıblar və bu xətti davam etdirirlər. Bizə dost olmayan qonşu dövlət Ermənistanda da bu sahədə müəyyən irəliləyiş var. 44 günlük Vətən müharibəsinin pikində Ermənistan tərəfi bəyan etdi ki, çirkli bombaya malikdirlər və bu bombadan istifadə edə bilərlər. Çirkli bomba taktiki nüvə silahlarında istifadə edilən həmin radioaktiv maddələrə hesablanmış, Britaniyanın Ukraynaya verdiyi çirkli bombalarla eynidir. Sadəcə, belə bombalarda nüvə partlayışından söhbət getmir. Bizim üçün bu sahədə 2 qonşu dövlətin hərbi taktikası daha çox əhəmiyyət kəsb edir və bu gün onların qarşısında əliboş durumdayıq”.

Qeyd edək ki, Azərbaycanda Milli Nüvə Tədqiqatları Mərkəzi 2014-cü ildə yaradılıb. 11 oktyabr 2021-ci ildə isə "Milli Nüvə Tədqiqatları Mərkəzi" İnnovasiyalar Agentliyi publik hüquqi şəxsin və Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi yaradılıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**



## Azərbaycan XİN Paşinyanın cavabını verdi

**“16 iyun tarixində Ermənistanın baş naziri Nikol Paşinyanın hökumət iclasında çıxışı zamanı Laçın dövlət sərhədindən buraxılış məntəqəsi təsis olunmasının "gərgin humanitar vəziyyət" yaratdığı, Azərbaycanın “erməni sakinlərin gündəlik tələbat malları və tibbi məhsullarla təmin olunmasının qarşısını aldığı”, “etnik təmizləmə siyasəti həyata keçirdiyi”, Azərbaycanın guya sərhədboyu ərazilərdə təxribat törətdiyi barədə növbəti dəfə səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik".**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Azərbaycanın öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsi məsələsinə Ermənistan tərəfinin hər hansı bir müdaxiləsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiadır və bu kimi hərəkətlər beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir.

“Görünür ki, bu məntəqənin təsis edilməsi ilə Azərbaycana qarşı təcavüz törətmiş və 30 ilə yaxın müddətdə torpaqlarımızı işğal altında saxlamış Ermənistanın vəziyyəti gərginləşdirən addımları və yoldan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətlərdən məhrum olması bu ölkəni narahat etməkdədir.Məntəqədən Azərbaycan Respublikasının Qarabağ bölgəsinin yerli erməni sakinlərinin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlı keçidi üçün müvafiq şərait mövcuddur və məntəqə təsis edilən gündən yüzlərlə sakinin bu yoldan sərbəst şəkildə istifadə etdiyi məlumdur. 15 iyun tarixində Ermənistan tərəfindən bu məntəqəyə və sərhədçilərimizə qarşı törədilmiş təxribatın da məqsədi, Azərbaycan tərəfdən sərhəd-buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə kölgə salmaq, məntəqədən təhlükəsiz və sərbəst şəkildə istifadəyə maneçilik törətməkdir.

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması ilə nəticələnmiş hücumdan sonra bu təxribatın səbəblərinin araşdırılması, sərhəd-buraxılış məntəqəsinin və oradan keçidin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan tərəfindən həyata keçirilən müvafiq tədbirlərin “blokada” kimi qiymətləndirilməsi qəbuledilməzdir. Ermənistan tərəfindən əsassız bəyanatlar vermək əvəzinə, təxribatlardan əl çəkməyi, sülh sazişi üzrə danışıqlara və bölgədə kommunikasiyaların açılması məsələsinə məsuliyyətlə və konstruktiv şəkildə yanaşmağı, qüvvələrinin Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik", - deyə məlumatda bildirilir.

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

# İlham Əliyevin BMT ilə bağlı təklifi masada

## Türkiyə və ya Pakistan TŞ-nin daimi üzvü olacaqmı? Veto hüququ BMT-ni 5 dövlətin əsirinə çevirib, politoloqlar deyir ki...

**“ABŞ administrasiyası BMT Təhlükəsizlik Şurasına veto hüququ olmayan əlavə 6 daimi üzvün daxil edilməsini təklif edir”.**

Bu barədə öz mənbələrinə istinadən “The Washington Post” məlumat yayıb. Bildirilir ki, prezident Co Bayden yenidən təşkilatlanma yolu ilə inkişaf etməkdə olan ölkələrin BMT-yə təsirini genişləndirmək niyyətindədir.

Nəşrin şərhinə görə, Vaşinqton bununla Rusiyanın Ukraynaya hərbi təcavüzü fonunda BMT TŞ-yə “etimadı bərpa etmək” istəyir. Artıq ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Linda Tomas-Qrinfild bu payız dünya liderlərinin Nyu-Yorkda keçiriləcək illik toplantısı ərəfəsində Təhlükəsizlik Şurasının mümkün genişləndirilməsi ilə bağlı fikirləri öyrənmək üçün təşkilatın 193 ölkəsinin diplomatları ilə məsləhətləşmələr aparır.

Qəzetə görə, BMT TŞ-də islahat bu quruma üzv olan 193 ölkədən ən azı 128-nin təsdiqini tələb edəcək və BMT Nizamnaməsində dəyişikliklərə səbəb olacağı üçün TŞ-nin bütün 5 daimi üzvü tərəfindən ratifikasiya edilməlidir.

Məlumdur ki, BMT TŞ-nin 5 daimi və veto hüququna malik üzvü arasında (ABŞ, Rusiya, Çin, Fransa və Britaniya) milyard yarımlıq islam dünyasından bir ölkə də yoxdur. O da bəllidir ki, Azərbaycan Prezidenti İlham Əliyev azı iki dəfə analoji təşəbbüslə çıxış edib. Birinci dəfə bu ilin yanvarında yerli telekanallara müsahibəsində deyib ki, BMT Təhlükəsizlik Şurasının formatı artıq köhnəlib: “Ona görə əlbəttə ki, Təhlükəsizlik Şurasında yeni üzvlər olmalıdır. Mütləq bir daimi yer müsəlman ölkəsi üçün ayrılmalıdır və bunu İslam Əməkdaşlıq Təşkilatı özü müəyyən etməlidir, o seçim etməlidir, iki illik, ya üç illik rotasiya prinsipi əsasında. Bir yer də Qoşulmama Hərəkatına verilməlidir və orada sədrlik edən ölkə o daimi yerdə olmalıdır, əgər veto hüququ qalacaqsa, onda o yeni iki üzvə də veto hüququ verilməlidir”.



2023-cü il martın 2-də isə Qoşulmama Hərəkatının COVİD-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Sammitində çıxışında İlham Əliyev BMT Təhlükəsizlik Şurasının daha nüfuzlu və coğrafi baxımdan daha ədalətli olması üçün tərkibinin genişləndirilməli olduğunu bildirib. Dövlət başçısı bir daha BMT Təhlükəsizlik Şurasının keçmişi xatırlatdığını və indiki reallığı əks etdirməyini, islahatlara ehtiyacı olduğunu vurğulayıb.

Həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə “dünyanın 5-dən böyük olduğunu” söyləyib və qlobal sülh və təhlükəsizlik naminə bu ədalətsizliyin aradan qaldırılmasına çağırıb.

Bəs BMT TŞ-də veto hüququ olmayan yeni daimi üzvlərin qəbulu reallaşacaqmı? Müsəlman dünyasının lider dövləti kimi Türkiyə, yaxud müsəlman nüvə dövləti Pakistan, nəhayət, o sırada layiqli yerini tutacaqmı?

**Politoloq Qabil Hüseynli BMT-nin mütləq şəkildə dəyişilməli olduğunu bildirdi:** “Bu gün buna ciddi ehtiyac duyulur. BMT təkcə struktur etibarı ilə təkmilləşdirilməməlidir. Həmçinin bu qurumun elə bir mexanizmi hazırlanmalıdır ki, onun verdiyi qərarlar özü tərəfindən də icrası təmin edilə bilsin. Təəssüf ki, bu gün BMT TŞ-nin bir çox qərarları yerinə yetirilmir. Yaxud uzun illər boyu kağız üzərində qalır. BMT onların icrasını təmin etmək üçün ya mübarizə aparmadı, ya da onların yerinə yetirilməsi üçün təsirli tədbirlər görə bilmədi. Bu gün təşkilatın qəbul etdiyi qərarlara nəzarət etmək üçün onun mavi dəbilqəlilər adlanan silahlı qüvvələrinin təkmilləşdirilməsinə böyük ehtiyac var. Bəzi dövlətlər bu mavi dəbilqəlilərin heyətinə əsgər ya göndərmir, ya da göndərəndən sonra onları geriyə çəkir. Bunun da bir səbəbi var, o da BMT-nin bu qüvvələri saxlamaq üçün kifayət qədər maliyyə vəsaitlərinin olmamasıdır.

Bu qurumun hazırda 200-ə yaxın üzvü var. Amma bunların içərisində yalnız bir neçə dövlət üzvlük haqqını vaxtında ödəyə bilir. Amerika başda olmaqla, bir sıra ölkələrin bu yardımları olmasaydı, BMT-nin icra aparatının, eləcə də onun nəzdində olan qurumların mövcudluğu sual altında olardı. Hətta Rusiya kimi böyük dövlət də vaxtında BMT-yə üzvlük haqqını ödəyə bilmir. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün veto qoymaq hüququ aradan qaldırılmalıdır. Qərarlar sadə səs çoxluğu ilə qəbul edilməlidir. Veto hüququ BMT-ni 5 dövlətin əsirinə çevirir. Quruma daxil olan bütün ölkələr arasında hüquq bərabərliyi yaradılmalıdır.

Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Qoşulmayanlar Hərəkatının sədrinin BMT Təhlükəsizlik Şurasına daxil edilməsinə böyük ehtiyac var. Bundan başqa, Afrika qitəsinin, Cənubi Amerikanın, eləcə də bir sıra dövlətlərin BMT-də qərarların qəbul edilməsində məsul olan qurumlara seçilməsinə ehtiyac duyulur. İslam ölkələrindən bir nümayəndənin BMT-də mütləq şəkildə daimi təmsilçiliyinə böyük ehtiyac var. Bundan əlavə, qurumun iclasları ildə bir dəfə deyil, azından iki dəfə olmalıdır. Eyni zamanda rəhbər orqanlara nüfuzlu, ciddi insanların seçilməsinə diqqət ayrılmalıdır".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Şəhla Cəlilzadə bu suallar üzərində çox maraq doğuran araşdırma aparıb:** “Dünyada böyük təlatüm doğuran müharibələrin hər biri beynəlxalq münasibətlər sisteminin struktur dəyişiklikləri ilə müşayiət olunub. Məsələn, Avropanı çalxalandıran Napoleonun məğlubiyyətindən sonra (1815) keçirilmiş Vyana konqresi, I Dünya müharibəsindən sonra (1919-1920) Versal-Vaşinqton sisteminin yaratdığı Millətlər Cəmiyyəti, II Dünya müharibəsindən sonra Potsdam sisteminin formalaşdırdığı BMT vurğulana bilər. Artıq BMT sistemi də öz işləkliyini itirməkdədir. Rusiya-Ukrayna müharibəsi artıq çoxdan iki ölkə arasında müharibə olmaqdan çıxıb. Faktiki olaraq Rusiya və Qərb arasında müharibə gedir. Odur ki, artıq daha mütəmadi olaraq dünya nizamının yenilənməsi ehtiyacı dilə gətirilir.

Atlantik Şurasının Strategiya və Təhlükəsizlik üzrə Scowcroft Mərkəzi ötən il dünyanın 167 aparıcı strateq və siyasi xadiminin iştirakı ilə qarşıdakı 10 ildə dünyamızda baş verə biləcək dəyişikliklərlə bağlı sorğu keçirib. Rusiyanın Ukraynanı işğal etməsinin beynəlxalq təhlükəsizliyin təminində məsul olan təşkilatların imkanları və çatışmazlarını açıq şəkildə ortaya qoyduğu üçün NATO və BMT TŞ-nin struktur dəyişiklikləri ilə bağlı da suallar soruşulub. Respondentlərin 82,4%-i böyük ölçüdə və ya tamamilə NATO-nun indiki formada qalacağını, 7%-i NATO-nun tamamilə fərqli formaya transformasiya edəcəyini, 6,1%-i buna cavab verməyin indi mümkün olmadığını, 4,1%-i isə NATO-nun, ümumiyyətlə, qarşıdakı 10 ildə hər hansı formada mövcud olmayacağını bildirib. Bununla yanaşı, BMT TŞ-nin genişlənib-genişlənməyəcəyi, genişlənərsə, hansı dövlətlərin bu struktura daxil olacağı soruşulub və nəticələr belədir: respondentlərin 64%-i BMT TŞ-də qarşıdakı 10 ildə yeni daimi üzvlük yeri açılmayacağını, 26%-i yeni yer açılarsa, burada Hindistanın, 11%-i Yaponiyanın, 9%-i Braziliyanın, 7%-i Almaniyanın, 4%-i Nigeriyanın, 2%-i Cənubi Afrika Respublikasının yer alacağını vurğulayıb. Ümumiyyətlə, BMT TŞ strukturu yenilənərsə ki, bu, olduqca çətin bir prosesdir, burada birdən çox yer açıq elan ediləcək və Hindistan bu üzvlükdən mütləq faydalanan dövlətlərdən biri olacaq. Təbii olaraq, Hindistan-Pakistan tarixi qarşıdurması fonunda bir yerin də Pakistana verilə biləcəyini ehtimal edə bilərik. Lakin respondent rəylərindən göründüyü kimi, təxminlər arasında müsəlman (İƏT üzvü) dövlətlərinin adı qeyd edilməyib. Bu isə təbii ki, ədalətli deyil.

Ən ədalətli struktur reformu təklifini isə cənab Prezident İlham Əliyev, regional-coğrafi bölgüyə və qlobal təşkilatların təmsil olunma imkanlarına vurğu etməklə irəli sürüb. Belə olan halda Türkiyənin və hətta Azərbaycanın da BMT TŞ-nin daimi üzvlüyündə yer alma imkanı yarana bilər. Lakin yeni üzvlərə veto haqqının verilməyəcəyinin qeyd edilməsi ənənəvi 5 daimi üzvün üstün imkanlarının saxlanmasına və struktur reformunun istənilən nəticəni verməməsinə gətirib çıxarar. O səbəbə təzə üzvlərin də veto haqqının olması beynəlxalq məsələlərdə daha ədalətli mövqe ortaya qoyulması və BTM TŞ-nin effektivliyinin artırılması baxımından mütləq əhəmiyyət kəsb edir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# ŞOK!: Vardanyan Paşinyana qarşı “kamikadze” dəstələri yaradır - “Ermənistanın xilası üçün...”



**Rusiyaya bağlı qatı müxalifətçi “Ermənistan” blokundan olan deputat Aqvan Vardanyan “ölkənin xilası” üçün “hər yola getməyə” hazır olan 200-250 “kamikadze”nin siyahısını hazırlayıb. “Yeni Müsavat” xəbər verir ki, bu barədə o, Ermənistan parlamentində jurnalistlərə bildirib.**

Onun sözlərinə görə, yalnız dövlət dəyərlərini qorumaq üçün hər şeyə hazır olanlar siyasi elita adlandırıla bilər. “Təəssüflər olsun ki, indi siyasi sahə parçalanıb və onu vahid gündəm ətrafında, vəziyyətə vahid baxışla birləşdirmək lazımdır”, - Vardanyan deyib. “Mən qəti əminəm ki, bu insanların missiyası ölkəni siyasi yolla indiki hakimiyyətdən azad etmək olmalıdır. Ona görə də bu qrup insanların özəyi ölkəni bu xarabalıqlardan çıxaracaq gələcək hökumətin tərkib hissəsini təşkil etməlidir”, - radikal müxalifətçi iddialı şəkildə bildirib. Vardanyana görə, o, artıq 200-250 nəfərlik siyahı hazırlayıb və nə vaxtsa onların razılığı olmadan bu siyahını dərc edəcəyini istisna etmir. “O zaman onlar elan olunmuş yolla getmək istəyirlər ya yox, özləri qərar versinlər”, deyə o əlavə edib.

Bundan əvvəl parlamentdə hökumət saatında hakim “Mülki müqavilə” fraksiyasından olan deputat Hasmik Akopyan baş nazir Nikol Paşinyandan hakimiyyəti dəyişmək istəyənlərin niyyətindən narahat olub-olmadığını soruşmuş, Paşinyan da demişdi ki, belə bəyanatlara hüquq-mühafizə orqanları reaksiya verməlidir. Bəs Moskvaya bağlı qanunsuz dəstələr Paşinyana sui-qəsd edə bilərmi? ABŞ Nikolu lazımınca qoruyurmu?

**Deputat, təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev “Yeni Müsavat”a deyib ki, Ermənistan dövləti terroru həmişə vasitə kimi istifadə edib:** “Ermənistanda siyasi mübarizədə terrordan istifadə ənənəsi var və gələcəkdə də belə halların olması istisna deyil. Amma bütün terror aktlarının arxasında etiraz edən qüvvə yox, böyük güclərin razılığı dayanır. 1999-cu ildə baş verən hadisədən əvvəl rusiyameyilli Köçəryan Fransaya gizli səfər edib və o vaxtkı prezident Jak Şirakla görüşmüşdü. Görünür, həmin mərkəzlərdən "xeyir-dua" aldıqdan sonra hakimiyyətə gəlmişdi. İndi isə regionda vəziyyət fərqlidir, bölgədə Türkiyə var, Rusiyanın yanaşması dəyişib, təsir imkanları da o dərəcədə deyil. Paşinyan 44 günlük müharibədəki məğlubiyyətdən sonra hakimiyyətdə qaldı və görünür, onu qoruyurlar. Düzdür, hansısa fanatiklərin əməli istisna deyil, ancaq olsa belə, 1999-cu il səviyyəsində gözlənilmir. Paşinyan qapalı görüşlərdə tərəfləri inandırmağa çalışır ki, sülh sazişi imzalansa, hakimiyyətinin devrilməsi baş verəcək. Bu da nəticədə prosesin uzadılmasına gətirib çıxarır. Ancaq bu, bizi maraqlandırmır. Azərbaycanın qarşıda planları var və Ermənistanın daxilində siyasi böhranla, xəstə təfəkkürlə barışmaq niyyətində deyilik. Ermənistanın sülh müqaviləsini imzalamaqdan başqa yolu yoxdur".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Azərbaycanda qadın vəkillərin sayı buna görə azdır - araşdırma

## Əsabəli Mustafayev: "Qadınların karyera qurması üçün xüsusi fəaliyyət planı lazımdır"

**"Azərbaycanda qadın vəkillərin azlığı bizi narahat edir". Bunu bir neçə gün öncə Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırov jurnalistlərə açıqlamasında deyib. Anar Bağırov bildirib ki, təhlillər qonşu ölkələrdə bu problemin mövcud olmadığını göstərir:**

"Onlarda qadın və kişi vəkillərin sayı bərabərdir. 2018-ci ildə ölkədə qadın vəkillərin sayı 15 faiz idisə, son illərdə 20 faizə yaxındır. Hazırda Azərbaycanda 400 nəfərə yaxın qadın vəkil fəaliyyət göstərir. Ümumilikdə bu say müsbət dinamika ilə artır".

Anar Bağırov həmçinin bildirib ki, Azərbaycanda bütün qadınların hüququ tanınır və gender bərabərliyi tam təmin olunur. Onun sözlərinə görə, Azərbaycanın təcrübəsi başqa ölkələr üçün də maraqlıdır: "Bizdə xanımlar ən yüksək vəzifələrdə təmsil olunur. Həm dövlətin idarə edilməsində, həm də qeyri-dövlət sektorunda geniş təmsil olunurlar".

Qeyd edək ki, ötən il bu rəqəm 381 nəfər idi hansı ki, bu, ümumi vəkil sayının 18 faizi deməkdir.

Məlum olduğu kimi, tarix boyu hüquq müdafiəçiliyi, qanunların keşiyində durmaq güclü cinsin - kişilərin peşəsi hesab edilsə də, zaman keçdikcə başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də əsaslı dəyişikliklər baş verib və bu gün bütün dünya ölkələrində hüquqşünas kimi fəaliyyət göstərən qadınların sayı kifayət qədərdir.

Ölkəmizdə də hər il ali təhsil müəssisələrinin hüquqşünas fakültəsinə kifayət qədər xanım tələbə daxil olur. Statistikaya görə, ölkədə hüquqşünas tələbələr arasında xanım və kişilərin sayı bərabərdir. Lakin sonradan hansısa səbəblər ucbatından bir çox hüquqşünas xanımlar öz peşələri üzrə çalışmırlar. Halbuki cəmiyyətimizdə qadın vəkillərinə ciddi ehtiyac var. Vəkillər Kollegiyasına müraciət edən qadınlar əksər hallarda qadın vəkillərə üstünlük verməyə, onlara inam göstərməyə çalışırlar. Zərif cinsin nümayəndələri arasında müstəntiq, dövlət ittihamçısı kimi vəzifələrdə çalışanların da sayı kifayət qədər azdır.



Bəs səbəb nədir? Ölkədə qadın vəkillərin sayı niyə hələ də kifayət qədər deyil?

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ötən bu məsələyə toxunarkən, qeyd etmişdi:** "Qadın vəkillərin sayı azdır. Buna səbəb onların bu peşəyə üstünlük verməmələridir"'.

**Tanınmış vəkil Əsabəli Mustafayev mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb.**

**Vəkil qeyd edib ki, ölkədə istər dövlət orqanlarında, istərsə də özəl sektorda vəzifədə olan qadınların faiz miqdarı kişilərlə müqayisədə çox aşağıdır. Eləcə də deputat, nazirlərin sırasında qadınların sayı azdır:** "Məsələn, neçə nazir qadın var? Yalnız Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri var, başqa qadın nazirimiz yoxdur. Həmçinin baxaq, icra başçıları sırasında qadınların sayı neçə faiz təşkil edir? Bəlkə də heç 1 faiz təşkil etmir. Beləliklə, bu mövzu hər zaman müzakirə predmeti olub ki, nə üçün qadınların karyerasında bu cür geri qalmalar var.

Hesab etmirəm ki, müstəsna bir vəziyyətə görə Vəkillər Kollegiyasında qadın vəkillərin sayı azdır, bu, ümumi ölkədə olan vəziyyətlə bağlıdır. Hüquq fakültəsinə qəbul olunanları araşdıranda məlum olacaq ki, qəbul olunan qadın tələbələrin sayı kişilərlə nisbətdə çox aşağıdır. Məsələn, ola bilsin ki, 15 faiz təşkil etsin".

**Əsabəli Mustafayev qeyd edib ki, keçmiş sovet dövründə də vəkil qadınların sayı azlıq təşkil edib:** "Sovet dövründə, indi də vəziyyət bu cürdür. Bəlkə də çətin sahə olduğu üçün qadınlar bu peşə üzrə fəaliyyət göstərməkdən çəkinirlər. Elə sahələr var ki, orada qadınlar üstünlük təşkil edir və daha bacarıqlıdırlar. Məsələn, həkimlik, müəllimlik sahəsində. Və yaxud ola bilsin ki, qadınlarda mərhəmət hissi daha güclüdür deyə, onlar daha çox səhiyyəni, təhsili seçirlər. Digər sahələr ola bilsin ki, onların xarakterinə xas deyil. Misal üçün, müstəntiq, hakim, vəkil olmaq. Yeni səbəblərdən biri peşənin xarakterlərinə uyğun gəlməməsi ola bilər.

Başqa bir səbəb: bir çox qadınlar ali məktəb bitisə də, sonradan işləmək istəmir, evdar qadın olmağa üstünlük verir və yaxud elə özünə elə bir rahat iş seçir ki, daim ailəsi, uşaqları ilə ünsiyyətdə olsun. Ona görə də hesab edirəm ki, qadınların karyera qurması üçün xüsusi fəaliyyət planı lazımdır. Yeni qadınlara dəstək olsun ki, onlar öz karyeralarında irəliləyə bilsinlər. O sırada bağça, məktəb sistemini inkişaf etdirmək, ailənin təminat məsələsini gücləndirmək lazımdır ki, qadınlar əmək fəaliyyəti ilə istədikləri kimi məşğul ola bilsinlər".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Bu gün Həcc ziyarəti başlayır - qiymətlərdəki artımın səbəbi

## QMİ rəsmisi: "Qiymətlərdə cüzi fərq var, o da..."; bu il zəvvarlar arasında qazi və şəhid ailələrinin üzvləri də olacaq

**Bu gün - iyunun 17-dən Azərbaycandan müqəddəs məkanlara Həcc ziyarəti başlayır. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) bildirilib ki, bu il Məkkəyə Həcc ziyarətinə 1400 nəfər gedəcək. Zəvvarların göndərilməsinə iyunun 17-də başlanılacaq və 21-dək davam edəcək.**

Ümumilikdə Səudiyyə Ərəbistanına 8 çarter reysi olacaq. Zəvvarların qayıdışı 5-11 iyul tarixlərində planlaşdırılır. Azərbaycanlı zəvvarlara Həcc ziyarəti 5750 ABŞ dollarına başa gələcək. Həccə quru (avtomobil) yolu ilə zəvvar aparılacaqmı?

Xatırladaq ki, bu il Qurban bayramı iyunun 28-29-na təsadüf edəcək. Qiymətlərdə və zəvvarların sayında ötən illərlə müqayisədə hansı fərqlər var və niyə?



**Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı, Həcc missiyasının qrup rəhbəri Bəxtiyar Nəcəfov** mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, ötən il pandemiyaya görə az adam ziyarətə gedib: "Keçən il bizdən az sayda-680 nəfər Həcc ziyarətinə yollanmışdı. Bu il isə 1400 nəfər yola düşür. Qafqaz Müsəlmanları İdarəsinin Həcc missiyası tərəfindən iyunun 17-dən 21-nə qədər bizim zəvvarların göndərilməsi davam edəcək. İlk olaraq Ciddə şəhərinə təyyarələrimiz çatacaq. Ciddə şəhərindən sonra Məkkəyə gedib öz əməllərini bitirdikdən sonra iyul ayının 2-dən hacılarımız hər gün müəyyən sayda Mədinə şəhərinə daşınacaq. Mədinədə Peyğəmbərin (s) və digər imamların Bəqir ziyarəti olacaq. Ondan sonra hacıların ayın 5-dən etibarən vətənə qayıdışı baş tutacaq".

**QMİ rəsmisi qiymətlərlə bağlı verilən sualı cavablandırıb:** "Qiymətlərdə cüzi bir fərq var. Bunun da səbəbi Səudiyyə Ərəbistanında olan bəzi dəyişikliklər, yerləşmə ilə bağlı, mehmanxanaların düzümü ilə bağlı Minada, Ərəfatda olan xidmətlərlə bağlıdır. Qiymətlərdə cüzi fərq var - təqribi olaraq 350-400 dollar artım olub".

**Bəs "tanınmışlardan bu il kim Həcc ziyarətinə gedəcək" sualına cavab olaraq Bəxtiyar Nəcəfov deyib ki, bu il Həccə yollanacaq zəvvarlar içərisində qazilər, şəhid ailələri də var:** "Şeyx həzrətlərinin təşəbbüsü ilə həm qazilərimiz, həm də şəhid ailələrinin üzvləri Həcc ziyarətinə gedəcəklər".

**Şəhid anası Hurnisə Kərimova "Yeni Müsavat"a dedi ki, o da Həcc ziyarətinə gedəcək:** "Yeddi ildir oğlum Əlizaman İslamov aprel döyüşlərində şəhid olub. Çoxdankı arzum idi ki, Həcc ziyarətinə yollanım. Bu il ərizə ilə Şeyxə müraciət etdim, sağ olsunlar, məktubuma müsbət cavab verdilər. Özləri zəng vurdular, öz vəsaitləri ilə məni yola salırlar. Bunda kimin əməyi keçirsə, hər kəsə təşəkkür edirəm. Əgər Allahın evinə gedirəmsə, imamlarımızı ziyarət edirəmsə, deməli, mənim şəhid balam da onların yanındadır. Təsəvvür edirəm ki, öz övladım da onların yanındadır. Onun ziyarətinə gedirəm. Bunun üçün çox can yandırıram ki, onları ziyarət edim".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Ayaz Mütəllibovun mətbuat katibi həbs olundu



Teylor İbrahimov

**Xətai Rayon Məhkəməsində sabiq prezident Ayaz Mütəllibovun mətbuat katibi olmuş Ağdam rayon sakini, 61 yaşlı Teylor İbrahimovun (Fətişoğlu) cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Musavat.com-un xəbərinə görə, Teylor Fətişoğlu özünü vəzifəli şəxs kimi təqdim edib, guya hüquq-mühafizə orqanlarında yüksək vəzifəli tanışları vasitəsilə istənilən məsələni həll edəcəyi barədə fikir formalaşdırıb.

O, Ağcabədi Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən saxlanılan Elməddin Ələsgərovun atası Bayram Ələsgərovu inandıraraq oğlunun cinayət məsuliyyətindən azad edilməsinə köməklik göstərəcəyinə inandırıb. Bunun müqabilində isə 2021-ci ilin iyul ayında Bayram Ələsgərovdan 25 min manat pul alaraq ona qarşı dələduzluq edib.

Bir müddət sonra Teylor Fətişoğlunun vədinə əməl etmədiyini görən Bayram Ələsgərov aldadıldığını başa düşüb, pulunu geri istəyib. Teylor Fətişoğlu isə ona Apelyasiya Məhkəməsində oğlunu buraxdıracağına söz verib. Zərərçəkmiş hər dəfə pulunu tələb etdikcə Teylor Fətişoğlu müxtəlif bəhanələr gətirib. Bu səbəbdən Bayram Ələsgərov hüquq-mühafizə orqanlarına müraciət edib. Bundan sonra Teylor Fətişoğlunun əməlləri ilə bağlı Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində istintaq aparılıb. Teylor Fətişoğlu barəsində Cinayət Məcəlləsinin 178.2.4 (xeyli miqdarda ziyan vurmaqla dələduzluq), 32.4,312.1 (rüşvət verməyə təhrik etmə) və 310 (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə ittiham irəli sürülüb.

Məhkəmənin hökmünə əsasən, Teylor Fətişoğlu 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun barəsindəki polisin nəzarəti altına vermə qətimkan tədbiri dəyişdirilib və məhkəmə zalında həbs olunub.

Teylor Fətişoğlu eyni əmələ görə əvvəllər də məhkumluq həyatı yaşayıb. Azadlığa çıxdıqdan sonra isə "İdeologiya.az" saytına və "Son Xəbər" yutub kanalına rəhbərlik edib.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

# Azərbaycanda müdhiş mənzil cinayətləri - yeni Hacı Məmmədov kimdir?



## Həmin vəzifəli şəxslərin kimliyi ilə bağlı bəzi ipucları əldə olunub...

**Azərbaycan vətəndaşı, Bakıda məktəblərin birində tarix fənnindən dərs deyən stajlı müəllimə S.Şirvanovanın müdhiş mənzil cinayətləri ilə məşğul olan dələduz dəstənin qurbanına çevrilməsi haqda yazmışdıq.**

Apardığımız araşdırmalardan məlum olur ki, müəllimənin 70 min manatını alıb ona 46 saylı notariusun əli ilə saxta sənədlər verən küçədən keçən adi dələduzlar deyil. Bakıda müdhiş mənzil cinayətlərini himayə edən məmur dəstəsi fəaliyyətdədir. Bu dəstə məşhur qanster Hacı Məmmədovun dəstəsi tək insanların başına güllə vurub həyatdan məhrum etmir. Amma törətdikləri cinayət faktiki olaraq Hacı Məmmədovun cinayətindən nəticə etibarı ilə ciddi fərqlənmir. Vəzifəli şəxslərin himayə etdiyi dəstə Azərbaycan vətəndaşlarını evsiz-eşiksiz qoymaqla faktiki olaraq elə yaşayış hüququndan, həyatdan məhrum edir.

Ötən sayımızda "Bakıda "Əzizbəyov KM" MMC-də müdhiş mənzil cinayətləri, 1 mənzili 11 nəfərə satıb azadlıqda gəzirlər" sərlövhəli araşdırma yazı dərc etmişdik. Zərərçəkən S.Şirvanova bildirmişdi ki, "Əzizbəyov KM" MMC-nin 46 saylı notariusla əlaqəsi var və həmin notariusda onun aldığı əmlakla bağlı sənədlər arxivdən yoxa çıxarılıb. Bundan başqa, hüquq-mühafizə orqanlarının "Əzizbəyov KM" MMC-dəki müdhiş mənzil cinayətlərini araşdırmaqdan yayınmalarına dəlalət edən faktlar da üzə çıxmışdı.

İndi isə bəlli olur ki, "Əzizbəyov KM" MMC illərdir ki, "Etalon" MTK ilə birgə dələduzların oylağı şəklində fəaliyyətdədir və onun daimi, mütəşəkkil qaydada fəaliyyətinin təmini də Azərbaycanda vəzifə daşıyan şəxslərin marağındadır. Həmin vəzifəli şəxslərin kimliyi ilə bağlı bəzi ipucları əldə etmişik və yaxın saylarımızda barələrindəki məlumatları bölüşəcəyik.

İndilik isə 2018-ci ilin oktyabrında "Əzizbəyov KM" MMC və bərabər fəaliyyətdə olan "Etalon İnşaat" MTK rəsmiləri barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində çıxarılan hökmlə tanış olaq.

Həmin vaxt vətəndaşlara qarşı külli miqdarda dələduzluq etməkdə təqsirləndirilən 1976-cı il təvəllüdlü Azad Həsənov və 1980-ci il təvəllüdlü Elnur Vəliyevin cinayət işi hakim Cavid Hüseynovun sədrliyi ilə araşdırılıb. Məhkəmənin hökmü ilə Azad Həsənov 8 il, Elnur Vəliyev isə 10 müddətinə azadlıqdan məhrum edilib.

O zaman iş üzrə vətəndaşların şikayətlərinə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində baxılıb. İdarə rəsmiləri "Etalon İnşaat" MTK tərəfindən paytaxtın Xətai rayonu ərazisində tikilməkdə olan yaşayış binasındakı mənzillərin aldatma yolu ilə təkrar olaraq ayrı-ayrı şəxslərə satılmasını aşkar edib.

İlkin araşdırmalarla müəyyən edilib ki, "Əzizbəyov-KM" MMC-nin sifarişi ilə 2006-cı ildə inşasına başlanılmış yaşayış binasındakı bir neçə mənzil "Etalon İnşaat" MTK-nın vəzifəli şəxsləri tərəfindən öz qulluq mövqelərindən sui-istifadə etməklə ayrı-ayrı şəxslərə satılıb.

Xətai rayonu, Xocalı küçəsi 2347-48-ci məhəllədə yerləşən bina "Etalon inşaat" MTK tərəfindən tikilib. Bina tam başa çatmamış "Əzizbəyov-KM" MMC-yə verilib. Amma binanı inşa edən MTK mənzillərdən bəzilərini satıb. Ancaq "Əzizbəyov-KM" MMC həmin satılan mənzillərə verilən sənədləri etibarsız sayaraq yenidən satışa çıxarıb. Bunun nəticəsi olaraq da bir çox mənzillərlə bağlı mübahisəli vəziyyət yaranıb. O zaman cinayət işi üzrə 50-dən çox zərərçəkmişdən dələduzluq yolu ilə 600 min manatdan çox vəsait alındığı üzə çıxmışdı.

"Əzizbəyov-KM" MMC və "Etalon İnşaat" MTK-nın rəhbər şəxsləri Elnur Vəliyevlə Azad Həsənov həbsdə ola-ola eyni cinayətlərin törədən kimlərdir? Kimdir mütəşəkkil cinayətkarlığın bu növünün yenidən ayaq açmasında maraqlı olan məmur?

Mövzuya qayıdacağıq.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

**Din xadimlərinin geyimi müzakirə mövzusu olub. Bəziləri məscid imamlarının standart dini geyimləri olmalıdır deyə açıqlama veriblər. Bəzi ekspertlər isə iddia edir ki, məscidlərdə bir çoxu İran mollası qiyafəsində minbərə çıxır, hətta minbəri qara parçaya bürüyüb xurafat danışanlar da tənqid olunur.**

Sirr deyil ki, ölkə məscidlərində, xüsusən də əyalətlərdə belə faktlara tez-tez rast gəlinir. Hansısa imam dindən daha çox, incə şəkildə İran fars rejiminin təbliği ilə məşğul olur. Bu zaman onun qiyafəsi də özlüyündə hansı "məzhəbə" qulluq etdiyini bariz şəkildə göstərir.

Ancaq məsələn, Azərbaycan din xadimləri üçün vahid, yaxud standart geyim forması olarsa, böyük ehtimalla, iranpərəstlər ondan imtina edəcəklər. Yəni bu, həm də bir "lakmus kağızı", test rolu oynaya bilər.



# Dìn xadìmlərìmìzìn vahìd forması olsunmu? - ìkì rəy

**Kənan Rövşənoğlu:** "İslam hüququnda geyimlər üçün müəyyən normalar var, bunlar..."

**Ağa Hacıbəyli:** "Necə ki həkim, müəllim geyimindən seçilir, imam da..."





Görəsən, Türkiyədəki kimi bizdə də məscid imamları üçün vahid geyim forması mümkünmü? Yeri gəlmişkən, əksər məscidlərdə sünni və şiə məzhəbindən olan dindarların fərqli geyindiyi qeyd edilir.

**Mövzu ilə bağlı dini mövzularda ixtisaslaşan jurnalist Kənan Rövşənoğlu "Yeni Müsavat"a dedi ki, bizdə artıq 10 ilə yaxındır mollaların geyim forması var və bu, məscidlərdə istifadə olunur:** "Ümumiyyətlə, bu geyim forması anlayışı kimin ağlına gəlibsə, sovet düşüncəsi məhsuludur. Onsuz da bütün məscid imamları ibadət zamanı müəyyən dini geyimlərdən istifadə edir. Ən azı örtük atır çiyninə. Yəni bu bir formada ənənədir. Amma İslamın özünə gəlincə, İslamda nəinki ruhani üçün geyim forması, heç ruhani və ya din xadimi deyə bir zümrə yoxdur. Din biliciləri, din alimləri və ya tələbələri var ki, onlar ibadət və zəruri əməlləri bilənlərdir, onlar o əməlləri icra edirlər.

Müsəlman ölkələrində geyinilən ruhani libasları isə belə demək olarsa, ənənədir, ilkin islam dövründə olduğu kimi geyinirlər. Amma dediyim kimi, bu bir əmr və ya vacib göstəriş deyil. İslam hüququnda geyimlər üçün müəyyən normalar mövcuddur. Bunların bəziləri vacib normalardır, bəziləri isə müstəhəb, yəni bəyənilən və ya belə demək olarsa, ənənəvidir. Amma konkret geyim forması yoxdur. Dediyim kimi, bu daha çox ənənədir. Amma indi bir çox ölkələrdə tətbiq olunur, məktəblilər, dövlət məmurları və sair ixtisas geyimləri olduğu kimi, din xadimləri üçün də geyim forması düşünüblər. Və bizdə artıq uzun müddətdir ki, tətbiq olunur. Türkiyə təcrübəsinə gəlincə, bu ifadə səhvdir. Məscid imamları üçün vahid geyim forması yoxdur. Sadəcə, yuxarıda qeyd etdiyim kimi, ibadət zamanı örtük və baş geyimi var ki, bu da ənənəvi formadır".

**İlahiyyatçı Ağa Hacıbəyli** də mövzu ilə "Yeni Müsavat"a fikirlərini açıqladı. "İslam tarixi boyunca sevgili peyğəmbərimizin (s) zəmanəsinə gedib çıxsaq, əsrlərdən-əsrlərə, nəsillərin fərqli geyimlərlə, qiyafələrlə ortaya çıxdığının şahidi ola bilirik" deyən ekspert bildirdi ki, islamda standart bir geyim forması olmadığı üçün müxtəlif dövrlərdə, müxtəlif rənglərə əhəmiyyət verilib: "Bəzən sevgili peyğəmbərimizin (s) seçdiyi ağ rəng üzərində duran insanlar olub. Ağ rəngə əhəmiyyət verilib, hətta kəfən olaraq başlarında daşıyıblar. Əmmamə dediyimiz geyim formasının üzərində, məna olaraq ölüm qucağında, başında əmmaməsi daşınıb. Bu, insanın ölümlə iç-içə olduğunu göstərir.

Qiyafəyə gəlincə, Qurani-Kərimin bununla bağlı "Əraf" surəsində bir ayə də var. Geyindiyiniz zaman təmiz geyinin, ən gözəl libasınızı geyinin. Yəni toplumun, cəmiyyətin içinə çıxdınız zaman bir müsəlman kimliyiniz libasınızın təmizliyində görünməlidir. İslam dininə görə, geyim dar olmamalı, istər kişi, istərsə də qadın olsun, əzaları örtəcək şəkildə olmalıdır. Bütün bunları nəzərə alaraq, biz imamların geyimindən danışırıqsa, özəlliklə 21-ci əsrdə, həm də müstəqil ölkə olan Azərbaycandakı qiyafədən danışırıqsa, necə həkimlərin, müəllimlərin müstəqil geyimləri var, imamların da belə geyimi olsa, yaxşı olardı. Cəmiyyətdə həkimin qiyafəsi bəlli olur. Bir müəllimin, tələbənin geyimi bəlli olur. Bir yanğınsöndürənin xüsusi geyimi var, dünyanın harasında olsa belə fərqliliyi bilinir. Eynilə də minbər başına çıxıb könüllərə xitab edən bir insanları oyandıran, üfüqlərini açan, onları məna dünyasına yönəldən bir şəxs-imam da mənəvi cəhətdən dolu və insanlara yol göstərən bir şəxs olmalıdır. Təbii ki, onun qiyafəsi də bir mesaj verir. Əgər o imam bu xalqa, bu millətə xidmət edəcəksə, onun geyimi də bizim milli atributlarımıza, milli şüurumuza uyğun bir geyim olmalıdır.

Bu sahədə biz kimisə təqlid etmədən münasib bir geyimi seçə bilərik. Burada konkret bir geyim forması yoxdur. Ancaq ola bilsin ki, hansısa bir rəngdə ola bilər. Azərbaycan imamlarının da gözəl bir qiyafəsi olsa, səcdəsinə mane olmasa, Quranın söylədiyi kimi, təqva libası olaraq üst-üstə düşsün. Həm daxili zənginliyi, həm də fiziki olaraq gözəlliyi üst-üstə düşərsə, niyə də bu, Azərbaycanımızın xalqa xidmət edən imamının qiyafəsi olmasın".

❑ Afaq MÌRAYÌQ,
"Yenì Müsavat"

YENİ MÜSAVAT
N 105 (8241) 17 iyun 2023

**Daha bir tədris ili arxada qaldı. Dərslərin nə vaxt başlayıb, nə vaxt bitəcəyi ilə bağlı mübahisələr isə hələ də davam edir. İctimai marağı nəzərə alan Sosial Tədqiqatlar Mərkəzi isə rəy sorğusu keçirib. Sorğunun nəticələrinə əsasən, respondentlərin 68,1%-i dərslərin sentyabrın 1-də, 24,7%-i isə sentyabrın 15-də başlamasının daha məqsədəuyğun olduğunu qeyd edib. Rəyi soruşulanların 7,2%-i bu mövzu ilə bağlı fikir bildirməkdə çətinlik çəkib.**

# Əhalinin mövqeyi bəlli oldu: "Dərslər sentyabrın 1-də başlasın..." - sorğu ciddiyə alınacaqmı?

**Ceyhun Məmmədov:** "Rəy sorğuları, vətəndaşların fikirləri də bunu təsdiqləyir ki..."
**Kamran Əsədov:** "Dərslər sentyabr ayının 1-də başlayıb, may ayının 31-də başa çatmalıdır, çünki..."



Bəs rəy sorğularının nəticələri hökumət və parlament tərəfindən ciddiyə alınacaqmı? Növbəti tədris ilindən dərslərin sentyabrın 1-dən başlaması mümkünmü?

**Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Ceyhun Məmmədov "Yeni Müsavat"a açıqlamasında dərslərin sentyabrın 1-dən başlamasının tərəfdarı olduğunu bildirdi:** "Dəfələrlə bu mövzuda öz fikrimi bildirmişəm. Hesab edirəm ki, dərslər sentyabrın 1-dən başlamalıdır. Rəy sorğuları, vətəndaşların fikirləri də bunu təsdiqləyir.

Burada parlamentdən asılı bir məsələ yoxdur. Yeni Elm və təhsil komitəsinin üzvləri zaman-zaman bu məsələ ilə bağlı öz fikirlərini, münasibətlərinin bildiriblər. Məlum olduğu kimi, dərslərin sentyabrın 15-dən başlaması ilə bağlı dəyişiklik cənab Prezidentin sərəncamı ilə həyata keçirilib. Burada daha çox Elm və Təhsil Nazirliyinin üzərinə məsuliyyət düşür. Onlar mərkəzi icra hakimiyyəti kimi Prezident Administrasiyasına müraciət edərək, bu məsələ ilə bağlı öz münasibətlərini bildirə və gələcəkdə bu qərarın dəyişdirilməsinə başladıla bilər. Yəni məsələ daha çox onlara aiddir. Lakin tələsmək də olmaz. Aidiyyəti orqanlar məsələni dərindən öyrənməli, araşdırmalı, daha sonra Prezident Administrasiyasında məsləhətləşmələr aparmalıdır. Ondan sonra müvafiq qərarlar qəbul oluna bilər".

**Təhsil eksperti Kamran Əsədov da mövzu ilə bağlı danışdı:** "Xatırladım ki, ölkədə dərs ilinin müddəti bir neçə il əvvəl dəyişdirilib. Belə ki, Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarının icrası ilə 2015-ci ilindən etibarən ümumtəhsil məktəbində dərslər sentyabrın 15-də başlayıb, iyunun 14-də bitir. Dəyişikliyin əsas məqsədi şagirdlərin təlim yükünün azaldılması, proqram materiallarını səmərəli mənimsəmələri üçün əlverişli təhsil mühitinin yaradılması göstərilib. 2004-cü ilə qədər Bilik Günü sentyabrın 1-nə təsadüf edirdi. Lakin Prezident İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanına əsasən, Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınıb. Ardınca edilən dəyişikliklə 2015-2016-cı tədris ilindən ümumtəhsil məktəblərində dərslər mayın 31-də yox, iyunun 14-də başa çatır.

Qeyd edim ki, şagirdlərin təlim yükünün azaldılmasını dərs günlərinin sayının artırılması hesabına deyil, təhsil proqramlarındakı ikinci, üçüncü dərəcəli lazımsız materialların sıxışdırılması yolu ilə həll etmək olar. Digər tərəfdən, dərs ilini sentyabrın 15-dən 1-nə çəkməklə zəruri hesab olunan iki həftə bərpa edilə bilər".

**Ekspertə görə, dünyanın müxtəlif ölkələrində dərs ilinin başlama və başa çatması tarixləri ənənəvi olaraq iqlimdən və dərs yükündən asılı olmayaraq müxtəlifdir:** "Rusiyada ənənəvi olaraq 1 sentyabr Bilik Günüdür. Məktəblilərin tətilə yollandığı tarix isə mayın 25-dir. Gürcüstanda dərs ili sentyabrın 10-dan sonra gələn ilk bazar ertəsi günü başlayır. Belçikada, Çexiyada, Macarıstanda, İsraildə, Estoniyada dərs ili sentyabrın 1-i başlayır və müvafiq olaraq iyunun əvvəlinə, ortalarına və axırlarına kimi davam edir. İranda və Türkiyədə dərslər sentyabrda başlayıb, iyun ayında başa çatır. Yaponiyada məktəblər aprelin 6-da açılır, tədris ilinin yekunu növbəti mart ayına təsadüf edir. Koreyada isə dərslər martda başlayır və dekabra qədər davam edir. Malayziyada məktəblər yanvarda, Çilidə, Kosta-Rikada isə fevralın sonları, yaxud martın əvvəllərində açılır.

Almaniyada hər inzibati bölgədə fərqli vaxtlarda tədris prosesi başlasa da, adətən bu tarix iyulun sonları ilə sentyabrın əvvəllərindən başlayıb iyunun ortalarına və iyula qədər davam edir. Hindistanda ibtidai və orta məktəblərdə dərslər iyun ayından növbəti ilin mart ayına qədər olan dövrü əhatə edir. İndoneziyada dərs ili iyuldan növbəti ilin iyununa qədər olan 11 ayı əhatə edir. İtaliyada məktəblər sentyabrın ilk 15 günlüyündə başlayır və iyunda başa çatır. Yeni Zelandiyada eyni təhsil dövrü 7 fevralda başlayıb 20 dekabra qədər uzanır. İngiltərə və Uelsdə dərs ili sentyabrın əvvəllərində başlayır və iyunun sonlarına qədər olur. Amma Böyük Britaniyanın digər subyekti Şotlandiyada dərslər avqustun ortalarında, yaxud sonlarında başlayıb növbəti il iyunun sonlarına və iyulun əvvəllərinə qədər davam edir.

Problem isə ondan ibarətdir ki, məktəb proqramının həcmi azalmır. Ən azı, 20-25 il bundan öncə məktəbdə verilməli olan proqramın həcmi bugünkündən az deyildi. Yaxud əksinə, bu gün verilməli olan bilik proqramı 20-25 il əvvəlkindən az olmamalıdır. Uşaqlara yayda istirahət etməyə nə qədər çox imkan veririksə, bir o qədər də onların tədris ili zamanı dərs yükü artır. Çünki dərs günlərinin sayı azalır. Əvvəllər dərslər sentyabrın 1-də başlayırdı, eyni zamanda tədris 6 günlük idi.

Azərbaycanda 2003-cü ildən etibarən dərslər 1 sentyabrdan yox, 15 sentyabrdan başladı. Bunun əsas səbəbi həmin dövrdə hava temperaturunun kəskin artması idi. Növbəti tədris ili ilə bağlı dəyişiklik 2015- 2016-cı tədris ilində dərslərin may ayının sonunda yox, iyun ayının 14- də bitməsi ilə bağlı oldu. Bu da çox ciddi məsələlərdir. Bildiyimiz kimi, Azərbaycanda 2008-ci ildən etibarən kurikulum standartları ilə tədris prosesləri təşkil edilir və hazırda bizim dərs həftəmiz 32-34 həftəlikdir. Ən zəruri məqamlardan, edilməli olan dəyişikliklərdən biri dərs prosesinin yenidən sentyabr ayının 1-dən başlaması ilə bağlıdır. Bu çox zəruridir. Hava temperaturu sentyabrın 1- dən 15-nə qədər olan müddətdə, iyun ayının 1-dən 14-nə qədər olan müddətlə eyni deyil. Havanın orta temperaturu sentyabrın əvvəllərində hər gün aşağıya doğru dəyişir, iyun ayının əvvəlində isə hər gün temperatur kəskin artır.

Digər tərəfdən, biz birmənalı şəkildə görürük ki, sentyabrın 1-i uşaqlar daha böyük enerji ilə məktəbə gəlirdilər. Amma iyun ayının 1-dən 14-nə qədər olan müddətdə şagirdlər yorulur, isti vaxtda dərsə getmək onlar üçün uyğun deyil. Eyni zamanda qəbul imtahanları ilə də bağlıdır. Dərslər nə qədər tez başlasa, mart, aprel ayında keçirilən imtahanlara şagirdlərimiz daha hazır vəziyyətdə gələr. Valideynlər də aldıqları yay məktəbli geyimlərini daha uzun müddət ərzində uşaqlarının istifadəsinə verə bilərlər. Həmçinin şagirdlər daha səmərəli şəkildə dərs proseslərində iştirak edə bilərlər. Biz dərslərə sentyabrın 1-dən başladıqda həm havanın temperaturu, həm şagirdlərin yüksək enerji ilə başlaması, bir sözlə, bütün bu amillər onlara daha müsbət təsir göstərəcək. Birmənalı şəkildə dərslər sentyabr ayının 1-də başlayıb, may ayının 31-də başa çatmalıdır. Bu, həm təhsilin keyfiyyətli təşkilinə, həm də dərs günlərinin kifayət qədər olmasına imkan verər".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Son iki ayda Azərbaycanda 57 avtomobil yanıb - ilginc səbəblər, çıxış yolu

**Elməddin Muradlı:**
"Avtomobillərdə yanğının birinci səbəbi sürücü məsuliyyətsizliyidir"



**Zaman-zaman xüsusilə paytaxt ərazisində avtomobillərin yanma halları müşahidə olunur. Fövqəladə Hallar Nazirliyindən "Yeni Müsavat"ın sorğusuna cavabda bildirilib ki, təhlillərin nəticələrinə əsasən respublika ərazində cari ilin aprel və may aylarında avtomobil nəqliyyatı vasitələrində 57 yanğın hadisəsi qeydə alınıb ki, onlardan 8-i yük avtomobilində, 48-i sərnişin avtonəqliyyat vasitələrində və 1-i xüsusi təyinatlı avtomobildə olub.**

"Yanğın hadisələrinə səbəb əsasən nəqliyyat vasitələrinin sistemlərinin, mexanizmlərinin və hissələrinin nasazlığı, bəzi hallarda isə yol-nəqliyyat hadisələri və qəsdən yandırma olub. Nəqliyyat vasitələrinin sahibləri tərəfindən avtomobil istehsalçı zavodlarının tövsiyələrinə riayət etmədən əlavə işıqlandırma vasitələrinin quraşdırılması, həmçinin benzinlə çalışan daxiliyanma mühərriklərinin konstruksiyasına dəyişiklik edilərək maye qaz yanacağı sisteminin quraşdırılması, sıxılmış maye qazın saxlanılması üçün balonların avtomobildə qeyri-konstruktiv şərtlərlə yerləşdirilməsi və digər texniki layihə həllərindən kənaraçıxma halları əsas faktlardandır. Bununla yanaşı, müdaxilələrin əsasən qeyri-peşəkar ustalar tərəfindən texniki xidmətlərin göstərilməsinə uyğunlaşdırılmayan sexlərdə kustar üsulla həyata keçirildiyi əsas amillərdəndir", - deyə məlumatda vurğulanır.

**Baş Dövlət Yol Polisi İdarəsinin İctimai Qurumlarla Əlaqə Şöbəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirli** qəzetimizin sorğusuna cavab olaraq bildirib ki, bəzi fərdi minik avtomobillərinin, xüsusilə ümumi istifadədə olan avtobusların elektrik sistemindəki texniki nasazlıq səbəbindən, yaxud yol qəzası zamanı nəqliyyat vasitəsində yanğın hadisəsi olur.

**Qurum rəsmisinin sözlərinə görə, əsas səbəblərdən biri avtomobildə odsöndürənin olmamasıdır:** "Bu da ağır fəsadlarla nəticələnir. Nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi zamanı odsöndürənin olması tələb edilsə də, bəzi şəxslər buna laqeyd yanaşaraq, yalnız texniki baxışdan keçmək üçün odsöndürən əldə edirlər. Yanğın hadisəsini nəzərə alaraq, sürücülərdən xahiş edirik ki, özlərinin və sərnişinlərin təhlükəsizliyinin təmin olunması məqsədilə avtomobillərin texniki sazlığına mütəmadi nəzarət etsinlər, eləcə də yanğının qarşısının vaxtında alınması üçün odsöndürənin olmasını təmin etsinlər".

Qeyd etmək yerinə düşər ki, yanmış avtomobilləri bir çox halda təmir etdirmək mümkün olmur. Son nəticədə onlar "ölüxanaya" atılır. Eyni zamanda yanmış avtomobilin ehtiyat hissələrini satışa çıxarmaq da olmur.

**Nəqliyyat eksperti Elməddin Muradlı "Yeni Müsavat"a bildirdi ki, avtomobillərdə yanğının birinci səbəbi sürücü məsuliyyətsizliyidir. Onun qənaətincə, sürücülərin müxtəlif aksessuarlara marağı xoşagəlməz nəticələr yaradır**: "Əsasən avtomobillərə əlavə işıq cihazları quraşdırılır, salona əlavə işıq sistemi çəkdirirlər. Həmçinin ön faralara əlavə işıq cihazları quraşdırırlar, amperi uyğun gəlməyən lampalardan istifadə edirlər. Hər halda, istehsalçı zavod hansı cihazların münasib olduğunu hesablayır. Azərbaycana bir çox ölkədən avtomobil gətirilir. Xüsusilə ABŞ, Yaponiyadan sunami, sel daşqınına məruz qalmış avtomobillər üstünlük təşkil edir. Bu avtomobillərin elektrik sisteminə su dəydiyi üçün ərp bağlayır və bir müddət sonra qısaqapanma nəticəsində yanma baş verir. Müasir avtomobillərdə elektrik sistemi izolyasiya olunur. Azərbaycana 2000-2015-ci ilə qədər istehsal olunmuş avtomobillər gətirilir.

Digər məsələ odsöndürənlərdən istifadə olunmamasıdır. Sürücülər texniki baxışdan keçmək üçün odsöndürəni kimdənsə əldə edirlər. Hadisə baş verdikdə bəlli olur ki, sürücülər yalnız özlərini aldadıblar. Nəticədə sürücülər 5 min manatdan 30 min manata qədər ziyana düşürlər. Halbuki odsöndürənin qiyməti 20-30 AZN-dir".

**❑ Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

iyun

Son səhifə

N 105 (8241) 17 iyun 2023

## Bunları bilirsinizmi?

* Qədim Romada xəstə cərrahiyyə əməliyyatı zamanı ölərdisə, cərrahın əllərini kəsirdilər.
* Sienada (İtaliya) Mariya adlı qadın fahişə ola bilməz.
* Dünyadakı canlıların 70%-i bakteriyalardır.
* Fil yeganə heyvandır ki, 4 dizi var.
* Tokioda zooparklar il ərzində 2 ay bağlanır ki, heyvanlar insanlardan dincəlsinlər.
* Arı çalmağından hər il çox adam ölür, nəinki ilanın çalmağından.
* Akulalarda xərçəng xəstəliyinə qarşı immunitet var.
* Qorillalara hamiləliyə qarşı dərman təsir edir.
* Ən çox susuz qala bilən heyvan siçovuldur.
* Dəvəquşu yumurtasını bişirmək üçün 4 saat vaxt lazımdır.
* 1 kq bal hazırlamaq üçün 1 arı 2 milyon gülə qonmalıdır.
* Şimpanze yeganə heyvandır ki, güzgüdə özünü tanıya bilir.
* "Oranqutanq" sözü afrikalıların dilində meşədən gəlmiş adam deməkdir.
* Krokodillər daş udurlar ki, daha dərinə bata bilsinlər.
* Həzrət Rəsulullah (s) buyurub: "Peyğəmbərdən (s) soruşdular: Hansı dostlar daha üstündür? Buyurdu: "Onu yad etdikdə sənə kömək edən və onu unutduqda səni yad edən".
* Bethoven bir dəfə xuliqanlıq üstündə həbs edilib.
* D.Vaşinqton öz bağında marixuanna yetişdirirmiş.
* Burun insanda bütün ömrü boyu inkişaf edir.
* 20 uşaqdan yalnız biri həkimin dediyi tarixdə doğulur.
* Dil izləri bütün insanlarda fərdidir.
* Bədən temperaturunun 80%-i insanın başından çıxır.

# Sutkada nə qədər çay içməliyik?



**Həddindən artıq çay içmək sağlamlığa zərərlidir. Xüsusilə çay qan təzyiqini, maddələr mübadiləsini, mədə-bağırsaq traktını normallaşdırmağa kömək edir, baş ağrılarını, əzələ ağrılarını azaldır.**

Milli.Az "Medicina"ya istinadən xəbər verir ki, dietoloq Oksana Dmitriyevanın sözlərinə görə, çayı digər içki növləri - kompotlar, meyvə içkiləri, qəhvə və ya adi su ilə əvəz etmək olar.

"Gündə içə biləcəyiniz optimal çay miqdarı 4-5 stəkandan çox olmamalıdır. Üstəlik, burada bir prinsip var: nə qədər az, bir o qədər yaxşıdır. Orta dozada (2-3 stəkan) çay sağlamlıq üçün çox faydalıdır. Bu, əsasən güclü antioksidantlar olan taninlərlə bağlıdır. Problemlər 5-ci stəkandan sonra başlayır. Məsələn, taninlərin çoxluğu dəmirin mənimsənilməsinə çox mane olur.

Çayın zərərli təsirlərini neytrallaşdırmaq üçün onu böyük həcmdə içməmək daha yaxşıdır. Əgər siz artıq 3 stəkan içmisinizsə, o zaman su, mineral su və ya kompota keçin.

Çayın bədənə başqa bir zərərli təsiri yuxusuzluğun və əsəb həyəcanının artmasıdır. Çay həvəskarları, yeri gəlmişkən, təmkinsiz və aqressiv olurlar. Kofein insanın aqressiyasını artırır".

## Ölümdən sonra beyində nələr baş verir?



**Uzun müddətdir tədqiqatçılar insanın ölüm anında və ondan dərhal sonra beyində nə baş verdiyini anlamağa çalışırlar. Həyatı üçün ciddi təhlükə ilə üzləşən xəstələrin 11-də beyində müxtəlif hadisələr, impulslar qeydə alınıb. Bunlar travmatik beyin zədəsi, qəza və ya əməliyyat zamanı komaya düşənlər olub.**

Ölümə yaxın təcrübələrin mənşəyi ilə bağlı ən çox yayılmış fikir budur ki, bütün bu hisslər ürəyin dayanması ilə oksigen çatışmazlığı səbəbindən beyində meydana gələn bir növ hallüsinasiyalardır.

Beyinin elektrik fəaliyyəti elektroensefaloqramma vasitəsilə qeydə alınır - alfa, beta, qamma və digər ritmlər fərqləndirilir. Zehni fəaliyyət, yuxu və beyində baş verən digər proseslər üçün müxtəlif tezlik ritmləri xarakterikdir.

Bəzi müşahidələr göstərir ki, ürək dayanmasından sonra beynin idrak xüsusiyyəti bir az qorunub saxlanılır.

2013-cü ildə siçovullar üzərində aparılan təcrübədə heyvanların ürəyi dayanandan sonra beyin 30 saniyə işləyirdi. Tədqiqatçılar bildirirlər ki, qeydə alınan aktivlik beynin müxtəlif hissələrində baş verib və hətta oyaq olandan daha yüksək olub.

İnsanlarda bu dalğalar xatirələrlə də əlaqələndirilir və buna görə də ölümdən əvvəl bir insanın həyatının müxtəlif hadisələrini görməsi mümkündür. Kliniki ölüm keçirənlərin bəziləri məhz bundan danışır.

## Bu qan qrupundan olan kişilər ən yaxşı sevgilidir



**Kişilərin temperamenti qan qrupundan asılı ola bilər. Bu gözlənilməz nəticəyə 3000 kişinin iştirakı ilə eksperiment aparan alman alimləri gəliblər.**

Mütəxəssislər könüllüləri qan qruplarına görə bölərək maraqlı nəticələr əldə ediblər. Məlum olub ki, dördüncü qan qrupunun sahibləri əsasən mühafizəkar və hər şeydə maksimalistlərdir. Onlar qurulmuş vərdişləri dəyişdirmirlər və nadir hallarda təcrübələrə hazırdırlar, həmçinin həmişə ən yaxşısına sahib olmağa çalışırlar.

Bir qadının maneəsiz, qeyri-adi və açıq cinsi əlaqəyə ehtiyacı varsa, o zaman üçüncü qan qrupu olan güclü cinsin nümayəndəsinə diqqət yetirməlisiniz. Onlar həssas və sirli təbiətdirlər. İkinci qan qrupu olan kişilər cinsi əlaqədə o qədər də aktiv və virtuoz deyillər, lakin tərəfdaşlar üçün sadiq həyat yoldaşı ola bilərlər.

Nəhayət, birinci qan qrupunun daşıyıcıları yataqda real eksperimentatorlardır. Alimlər onları ən yaxşı sevgililər adlandırıblar: onlar sevgidə istedadlıdırlar və kobud seksə biganə deyillər, - ekspertlər belə qənaətə gəliblər.



## Avstraliyada sualtı ovdan çıxmaq istəyən uşağa köpək balığı hücum etdi

**Sualtı ovdan sonra qayığa çıxmaq istəyən səkkiz yaşlı avstraliyalı uşaqla köpək balığının qarşılaşması barədə video sosial şəbəkələrdə böyük müzakirələrə səbəb olub. Görüntülər Kvinslend ştatının Ledi Masqreyv adasında qeydə alınıb.**

Kadrlar Manni adlı uşağın okeandan vurduğu balığı nümayişkaranə şəkildə qayığa atması ilə başlayır. Elə həmin an qəfildən bir köpək balığı peyda olur və uşağın sinəsinə çırpılır. Məlumata görə, uşaq xəsarət almayıb.

"Bir az sinəm ağrıdı, ancaq bu qədər", - deyə uşağın özü olanlar barədə danışıb.

Mannidən bu hadisədən sonra okean qorxusunun yaranıb-yaranmadığı soruşulduqda isə o, dalmağa davam edəcəyini bildirib.



## Rusiyada yağan qar sakinləri təəccübləndirdi

**İyun ayının olmasına baxmayaraq, Rusiyaya qar yağıb. Sosial şəbəkələrdə bununla bağlı görüntülər paylaşılıb. Kadrlar Noviy Urenqoy şəhərindəndir. Sinoptiklər əmin edirlər ki, bu cür "yay" havası uzun sürməyəcək - günortadan sonra qar yağışla əvəzlənəcək.**

## Beyni cavan saxlamaq üçün "qızıl" məsləhətlər



**Bədənimiz yaşlandıqca, beynimiz istər-istəməz dəyişməyə başlayır. Bu yaxınlarda aparılan bir araşdırma 60 yaşa qədər beynin məlumatı emal etmə sürətinin dəyişməz qaldığını göstərsə də, bu yaşdan sonra sürəyin zəiflədiyini sübut edib.**

Orta hesabla 60 yaşa qədər beynin yaddaş və təfəkkürə cavabdeh olan əsas sahələri - ön hissə və hipokampus tədricən kiçilir. Həmçinin beynin ağ maddəsi, neyronlar arasında siqnal ötürən sinir lifləri azalır.

Qocalmış beyin "xoşbəxtlik hormonları" dopamin və serotonin də daxil olmaqla, daha az neyromediatr ifraz edir. Bütün bunlar depressiya, yaşla bağlı intellektin azalması və Alzheimer xəstəliyi kimi neyrodegenerativ xəstəliklər riskini artırır.

Beynin qocalma prosesini tamamilə dayandırmaq mümkün olmasa da, onu ləngitməyə kömək edəcək elmi əsaslı tövsiyələri təqdim edirik:

**1.** Magistral yol kənarı ilə getməyin, orda qaçmayın. Qaçış və gəzinti üçün park, orman, ara yolları seçin. Daimi fiziki fəaliyyət beyin üçün çox faydalıdır, çünki neyronlarda mitoxondriyaların (enerji "yarımstansiyaları") sayını artırmağa kömək edir.

**2.** Qan təzyiqi üçün dərman qəbul edin. Bu dərmanlar yaşla əlaqədar intellektin azalmasını yavaşladır və yaddaşsızlıqdan qoruyur.

**3.** Yaşıl salat və qırmızı bibər yeyin. Yaşıl yarpaqlı tərəvəzlər və parlaq rəngli tərəvəz və meyvələr flavonoidləri, bitki piqmentlərini ehtiva edir.

**4.** Qalxanvari vəzi müntəzəm olaraq yoxlayın. Qalxanabənzər vəz kifayət qədər tiroksin hormonu istehsal etmirsə, bu, intellektin azalmasına və yaddaşın pozulmasına səbəb ola bilər.

**Səhifəni hazırladı: SELCAN**

Redaktor:
Zahid SƏFƏROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1533

Lisenziya N: B 114
SAYI: 1.500